

Azərbaycanda Kinostudiya “ölüb”, dəfn edən lazımdır: RASİM BALAYEVDƏN CİDDİ NARAHATLIQ

Səh: 6-da



Mark Qorin: “MAVİ DƏNİZİN SAHİLLƏRİNDƏ”

Səh: 7-də



Xudu Məmmədovu daha yaxından tanıyaq: Türkiyədən “Təzadlar”a yazırlar...

Səh: 11-də

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№03 (2391) * 18 mart 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# “İlham Əliyev ata yurdumu işğaldan azad etmiş prezidentdir və...”

**Jalə Cavadova:**

*“Bütün bu əvəzolunmaz duyğulara görə cənab Prezident İlham Əliyevə minnətdaram”*





Bax: səh.8-9



## Prezident qəbul keçirdi

Bax səhifə 2

## Mehriban Əliyeva Matviyenko ilə görüşdü ✓2

## İcra hakimiyyətinin şöbə müdiri həbs edildi ✓4

## Eldar İsmayılovun “Azərbaycan dünyası” jurnalının 25, özünün isə 75 illik yubileyi oldu ✓4

## Adına şirkət açdılar, özünü isə 100 min manatlıq çox borca saldılar... ✓5

## Xuraman Muradovanın “Vətən eşqi - Turan sevdası” kitabı Özbəkistanda təqdim edildi ✓10

## “Təzadlar”ın Dövlət İmtahan Mərkəzinə qarşı apellyasiya şikayəti sərəncama götürülüb ✓14-15

Bax səh.3-5

# Söyüş qəhrəmanları: Qabil Məmmədov və digərləri istintaqa çağrıldı - RƏSMİ

Bax səhifə 6



Kim kimi cərimə etməlidir?!

Bax səhifə 13-15



Bəxtiyar Vahabzadə: milli və bəşəri ideyaların tərənnümçüsü

## “Təzadlar”ın qızılaxtaranlarla bağlı bir müddət əvvəl yazdıqları təsdiqləndi - HƏBSLƏR VAR ✓3



## Tramp bu gün Putinlə danışacaq ✓2



## Bəxtiyarla İxtiyarın münaqişəsi başa çatdı ✓3



## Mehriban Əliyeva Matviyenko ilə görüşdü

**Birinci vitse-prezident Mehriban Əliyeva martın 16-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**

“Tezadlar.az” xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Valentina Matviyenkonu salamlayaraq, onun səfərinin ölkələrimiz arasında parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri qəbula və qonaqpərvəliyə görə Birinci vitse-prezidentə təşəkkürünü bildirib.

Qonaq ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.



# Prezident qəbul keçirdi

**Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.**

**Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**

***

Söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, ölkələrimizin Müdafiə nazirlikləri-nin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulanıb.

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin əhəmiyyətini qeyd edib.

Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırıb və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını deyib.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyyanamənin imzalandığını qeyd edib və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğulayıb.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.



## Ərdoğan Trampla danışdı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan amerikalı həmkarı Donald Trampla telefon danışığı aparıb.**

Bu barədə Türkiyə Prezident Administrasiyasının “X” hesabında məlumat verilib. Bildirilib ki, danışıq zamanı Türkiyə-ABŞ ikitərəfli münasibətləri, regional və qlobal məsələlər müzakirə edilib.

Ərdoğan, iki müttəfiq ölkə olaraq Türkiyə və ABŞ-nin yeni mərhələdə əməkdaşlığının həmrəy, nəticəyönümlü və səmimi şəkildə davam edəcəyinə inandığını vurğulayıb.

## “ASAN xidmət” bu tətil günlərində işləyəcək

**Qarşıdan gələn Novruz və Ramazan bayramları ilə əlaqədar 20, 21, 22, 23, 24, həmçinin 29, 30 və 31 martda “ASAN xidmət” və “ASAN kommunal” mərkəzlərində qeyri-iş günü olacaq.**

Mərkəzlərdə 25, 26, 27, 28 martda iş günü olacaq.

Qeyd edək ki, 1 saylı Sumqayıt “ASAN xidmət” mərkəzi zəruri təmir-bərpa işləri ilə əlaqədar aprelin 7-dək fəaliyyətini qismən məhdudlaşdırılmış formada davam etdirəcək.



## Tramp bu gün Putinlə danışacaq

**ABŞ Prezidenti Donald Tramp rusiyalı həmkarı Vladimir Putinlə martın 18-i telefonla danışacağını bildirib.**

**“Tezadlar.az” “Reuters”ə istinadən xəbər verir ki, bununla bağlı o, Floridadan Vaşinqtona uçarkən təyyarənin göyərtəsində jurnalistlərə açıqlamasında bildirib.**



Tramp söhbət zamanı Ukraynadakı münaqişə kontekstində ərazilər məsələsini gündəmə gətirmək, həmçinin Atom Elektrik Stansiyasına (AES) nəzarəti müzakirə etmək niyyətində-dir.

**“Biz bu müharibəni bitirə biləcəyimizi görmək istəyirik. Bəlkə bacarırıq, bəlkə də bacarmırıq, amma düşünürəm ki, bizim çox yaxşı şansımız var”, -** deyə ABŞ Prezidenti bildirib.

Qeyd edək ki, Tramp sonuncu dəfə fevralın 12-də Putinlə telefonla danışıb.




## “Yolda tələskənliyin qurbanı olmayın” - Sürücülərə çağırış

**Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə çağırış edib.**

“Tezadlar.az” xəbər verir ki, çağırışda deyilir:

“Yol hərəkətində bir saniyəlik tələskənlik, bir ömürlük peşmançılığa səbəb ola bilər. Sürət həddini aşmaq, qaydaları görməzlikdən gəlmək, diqqətsiz hərəkət etmək - bunların hər biri sizi və ətrafınızdakı insanları faciə ilə üz-üzə qoya bilər.

Unutmayın: sürət deyil, səbr sizi təhlükəsiz ünvana aparır. Öz həyatınızı və sevdiklərinizi qorumaq üçün qaydalara riayət edin, tələskənliyin qurbanı olmayın!”

## ETİBARSIZ SAYILIR

31.10.1960-cı ildə vəfat etmiş Klyuşin Roman İvanoviçin adına Yasamal Rayon Qeydiyyat şöbəsi tərəfindən 18.01.2024-cü ildə verilmiş Ölüm Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

15.08.1986-cı ildə vəfat etmiş Klyuşina Olqa Nikolayevnanın adına Yasamal Rayon Qeydiyyat şöbəsi tərəfindən 18.01.2024-cü ildə verilmiş Ölüm Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

21.01.2006-cı ildə vəfat etmiş Perepeçay Muza Romanovnanın adına Yasamal Rayon Qeydiyyat şöbəsi tərəfindən 16.01.2024-cü ildə verilmiş Ölüm Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

05.05.1992-ci ildə vəfat etmiş Perepeçay Vasiliy Lukiçin adına Yasamal Rayon Qeydiyyat şöbəsi tərəfindən 16.01.2024-cü ildə verilmiş Ölüm Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

11.01.1975-ci ildə 26 Bakı Komissarı rayonunun Qeydiyyat şöbəsi tərəfindən verilmiş Sultanov Oleq Daqoboviçlə Sultanova (Perepeçay) Natalya Vasiliyevna arasında nikahın pozulmasını təsdiq edən Boşanma Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

07.01.1952-ci il tarixdə Perepeçay Vasiliy Lukiç və Klyuşina Muza Romanovna arasında bağlanmış nikahı təsdiq edən və 2006-cı ilin fevralında Yasamal Rayon Qeydiyyat şöbəsi tərəfindən verilmiş arayış itdiyi üçün etibarsız sayılır.

11.12.1952-ci ildə Bakı şəhərində anadan olmuş Perepeçay (Sultanova) Natalya Vasilyevnanın adına verilmiş və Yasamal Rayonu Qeydiyyat şöbəsi tərəfindən 20.06.2008-ci ildə təsdiq edilən Doğum Haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Şəhid ailələrinə iftar süfrəsi verildi

***“Vəhdət” Xeyriyyə Cəmiyyətinin təşkil etdiyi “İslam Mədəniyyəti” adlı iftar tədbiri çox maraqlı keçdi***



**Martın 15-də “Milord” şadlıq evində şəhid ailələri üçün “İslam Mədəniyyəti” adlı iftar süfrəsi təşkil edilmişdi. Tədbiri “Vəhdət” Xeyriyyə Cəmiyyətinin rəhbəri Tamilla xanım Hüseynova, təşkilatçılardan Əfsanə xanım Quliyeva və digər xeyirxah insanlar təşkil etmişdilər. Bütün bu tədbiri təşkil edənlərin hər birinə dərin təşəkkürümü bildirirəm. Mənim də həm jurnalist, həm keçmiş döyüşçü, həm də döyüşçü atası kimi dəvət aldığım bu gözəl tədbirdə Millət vəkilləri Ceyhun Məmmədov, Müşfiq Məmmədli, vaxtı ilə güləş üzrə dünya Çempionu olmuş Xəzər İsayev, Sahibkarlara dəstək Fondundan Fariz bəy, şəhid ailələri, qazilər, Qarabağ veteranları və digər tanınmış insanlar iştirak edirdilər...**

Tədbiri giriş sözü ilə “Vəhdət” Xeyriyyə Cəmiyyətinin rəhbəri Tamilla xanım Hüseynova açaraq, dəvəti qəbul edib gələn bütün qonaqlara təşəkkürünü bildirdi. Şəhid ailələrinə isə xüsusi minnətdarlığını bildirən Tamillə xanım çıxış üçün sözü millət vəkili Ceyhun Məmmədova verdi. C.Məmmədov öz çıxışındaİslam mədəniyyətindən, İslan dininin tarixindən və müqəddəs kitabımız olan “Qurani-Kərim”dən çox gözəl nümunələr söylədi. İslam əxlaqının bütün insanlara örnəkl olduğunu bildirən millət vəkili,bu tədbirin mahiyyətindən də danışdı. Tədbiri təşkil edənlərə, şəhid ailələrinə belə mənəvi dayaq olanlara minnətdarlığını bildirdi.

Millət vəkili Müşfiq Məmmədli öz çıxışında şəhid ailələrinə daim diqqət göstərilməsinin vacibliyini vurğuladı. Ölkə başçısı kimi Prezident cənab İlham Əliyevin şəhid ailələrinə xüsusi həssaslıqla yanaşdığını və onlara daim diqqət, qayğı göstərdiyini bildirdi. Eyni zamanda Birinci-vitse prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə daim maddi və mənəvi dayaq olduğunu da diqqətə çatdırdı. M.Məmmədli qeyd etdi ki, şəhidlərin hər biri bizim başımızın tacıdır və onların bizə əmanət etdikləri ailələrinə diqqət və qayğı göstərmək bizim müqəddəf borcumuzdur.

Çıxış edən Sahibkarlığa Dəstək Fondunun rəsmisi Fariz bəy öz çıxışında sahibkarlıqla məşğul olan şəhid ailələrinə, qazilərə və veteranlara həmişə maddi və mənəvi dəstək olduqlarını bildirdi. O, qeyd etdi ki, sahibkarlığa başlamaq istəyən bu kateqoriyadan olan insanlara dəyərli məsləhətləri ilə lazımi istiqamətə yönləndirirlər. Fariz bəyin çıxışından aydın oldu ki, şəhid ailələrinə, qazilərə, veteranlara, təmsil etdiyi fond sahibkarlıqla məşğul olmaq üçün yön və dəstək verirlər.

**“Tezadlar” qəzetinin kollektivi adından** tədbir iştirakçılarını salamlayaraq, keçmiş döyüşçü və döyüşçü atası kimi, mən də öz çıxışımda şəhidlərə daim borclu olduğumuzu və onların adlarını həmişə yüksəkdə tutmağın vacibliyini vurğulayaraq, bunları dedim: **“Əziz analar, və bacılar, mən görürəm belə tədbirlərdə həmişə qara paltar geyinirsiniz. Şəhidlər bizim torpaqlarımızın azadlığı və qələbəmiz üçün canlarından keçiblər. Bu gün onların da ruhu şaddır ki, torpaqlarımız azaddır. Bu qələbəyə isə, ancaq sevinmək lazımdır. Bizə bu sevinci, bu qələbəni məhz şəhidlər qazandırıb. Ona görə də daha qara paltardan çıxmaq lazımdır. Qələbə günlərində, belə bayram tədbirləri zamanı siz qara geyinəndə, şəhidlərin ruhu narahat olur. İstərdim mənim bu təklifimi nəzərə alasınız və daha qara paltardan çıxasınız...”**

Çıxışımın sonunda gözəl şairimiz Məmməd İsmayılın Qarabağ haqqında yazdığı “Tale” və unudulmaz şairimiz Söhrab Tahirin əsgərlərimizə ünvanlı “Çağırış” şeirlərini tədbir iştirakçılarının diqqətinə çatdırdım.

Çıxışlardan sonra Quran oxundu və orucun açılma vaxtı olduğu üçün hamı iftar süfrəsinə dəvət olundu.

Bədii hissədə isə, Əməkdar artist Fərqanə Qasımova öz gözəl ifaları ilə məclisə əlavə bir gözəllik qatdı. Şəhid ailələrinə, qazilərə və veteranlara göstərdikləri bu diqqət və qayğı üçün bir daha tədbirin bütün təşkilatçılarına ürəkdən təşəkkür edirəm. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin! Qazilərimizin tezliklə şəfa tapmasını arzu edirəm və veteranlarımıza sağlıqlı uzun ömür diləyirəm... Allah bütün tutulan orucları qəbul etsin!

**Elçin MƏMMƏDLİ**

# Söyüş qəhrəmanları: Qabil Məmmədov və digərləri istintaqa çağrıldı - RƏSMİ

## Onlar Cinayət Məcəlləsinin 22 maddəsiylə ittiham olunurlar

**Azərbaycan Respublikasının Baş Prokurorluğu qanunvericiliyə uyğun olaraq İlqar Allaz oğlu Hacıyevi, Məhəmməd Fazil oğlu Mirzəlini, Qurban Cəlal oğlu Məmmədovu, Elşad Tofiq oğlu Məmmədovu, Qabil Əmrah oğlu Məmmədovu, Tural Əlövsət oğlu Sadıqlını İstintaq İdarəsinə çağırıb. Tezadlar.az bildirir ki, bu barədə Baş Prokurorluqdan İTV-yə bildirilib. Məlumata görə, Baş Prokurorluğunun İstintaq İdarəsi tərəfindən təqsirləndirilən şəxslər - İlqar Allaz oğlu Hacıyevə, Məhəmməd Fazil oğlu Mirzəliyə, Qurban Cəlal oğlu Məmmədova, Elşad Tofiq oğlu Məmmədova, Qabil Əmrah oğlu Məmmədova, Tural Əlövsət oğlu Sadıqlıya Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 467-13.4-cü maddəsinin tələbinə əsasən rəsmi bildirişlər göndərilib.**



*Tikinti layihələrini təqdim edərək həmin layihələrin icrası ilə bağlı 10 000 000 ABŞ dolları məbləğində investisiya qoyacağı təqdirdə 18.000.000 ABŞ dolları qazanc əldə edəcəyi vədi ilə aldatmaqla...*

Onlar bir sıra cinayətlərdə ittiham olunurlar. O cümlədən İ.Hacıyevin istintaqa şəxsiyyəti məlum olan tanışının etibarından sui-istifadə edərək Rusiya Federasiyasının Moskva vilayətinin Mıtışinski rayonunun Piroqovka kəndində və Odintsovski rayonunun Noviye Javoronki kəndində yaşayış komplekslərinin tikinti layihələrini təqdim edərək həmin layihələrin icrası ilə bağlı 10 000 000 ABŞ dolları məbləğində investisiya qoyacağı təqdirdə 18.000.000 ABŞ dolları qazanc əldə edəcəyi vədi ilə aldatmaqla 2016-cı ilin fevralından 2017-ci ilin martın 22-dək olan müddət ərzində Rusiyanın paytaxtı Moskvada və Bakı şəhərinin Xəzər rayonu ərazisində yerləşən Heydər Əliyev Beynəlxalq Aeroportunun qarşısında ümumilikdə həmin dövrün rəsmi məzənnəsinə görə 17 000 000 manat təşkil edən 10 000 000 ABŞ dolları məbləğində pul vəsaitlərini alıb, zərərçəkmiş şəxsin külli miqdarda əmlakını dələduzluq yolu ilə ələ keçirməsinə əsaslı şübhələr müəyyən olunub.

M.Mirzəlinin Cinayət Məcəlləsinin 220.2 və 281.1-ci maddələri ilə 02 iyun 2018-ci il tarixdə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul olunub. Qərara əsasən, M.Mirzəlinin 2018-ci ilin əvvəllərində Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyən olunub.

Q.Məmmədovun 19 aprel 2019-cu il, 8 iyun 2019-cu il, 15 iyun 2019-cu il və 7 avqust 2019-cu il tarixlərdə qabaqcadan əlbir olan bir qrup şəxs halında internet informasiya resurslarında Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə, həmçinin 26 mart 2019-cu il, 29 iyun 2019-cu il, 18 oktyabr 2019-cu il, 27 oktyabr 2019-cu il tarixlərdə internet informasiya resurslarında ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak zərərinin vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsinə şərait yaradan hərəkətlər etməyə, yəni terrorçuluğa, habelə əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşlara açıq çağırışlar etməsinə, həmçinin 11 iyul 2023-cü il tarixdə "AzerFreedom TV" internet platformasında işinə görə ona məlum olan dövlət sirri təşkil edən məlumatları ağır nəticələrə səbəb olaraq dövlətə xəyanət əlamətləri olmadan yaymasına əsaslı şübhələr müəyyən olunub.

E.Məmmədovun isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 281.2-ci maddəsi ilə 05 may 2022-ci il tarixdə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul olunub. Onun 2021-ci ilin aprel ayından başlayaraq 2022-ci ilin may ayınadək internet informasiya resurslarında qabaqcadan əlbir olan bir qrup şəxs halında Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar etməklə bu cür məzmunlu materialları internet resurslarında yaymasına əsaslı şübhələr müəyyən olunub.

**(Davamı 5-ci səhifədə)**



# Bəxtiyarla İxtiyarın münaqişəsi başa çatdı

## *Bəs bu iki Ramiz Mehdiyevçinin bölə bilmədiyi nə olub?*

**Uzun illər rəsmi "Azərbaycan" qəzetini Ramiz Mehdiyevin təbliğatına çevirmiş və sonuncu parlament seçkisində kənara atılmış, 25 illik deputatlığına "yox" deyilmiş Bəxtiyar Sadıqovla müavini İxtiyar Hüseyinlinin mübarizəsi axır ki başa çatıb.**

Qəzet əməkdaşlarının verdiyi məlumata görə, uzun zamandır bütün rəsmi və ya ictimai əhəmiyyətli tədbirlərin qapıları üzünə bağlı olan Bəxtiyar Sadıqov özünə rəqib bildiyi İxtiyar Hüseyinlini işdən kənarlaşdırıb.

Maraqlıdır ki, hər iki şəxs uzun illər idi Ramiz Mehdiyevlə Əli Həsənovun tapşırıqlarını birgə həyata keçiriblər. Və hə ikisi də bunun əvəzini ikiqat alıblar: Əməkdar jurnalist, mənzil, "Şöhrət" ordeni(???) və s. Ramiz Mehdiyevin hansı kitabını açırsan, başda Bəxtiyar və İxtiyarın adını görmək olar.

Bəs bu iki Ramiz Mehdiyevçinin bölə bilmədiyi nə olub? Bu barədə daha ətraflı yazı olacaq. Elə müəllifi də "Azərbaycan" qəzetinin əməkdaşıdır...

**"Təzadlar"**

# İcra hakimiyyətinin şöbə müdiri həbs edildi



**Şəki Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Tural Məmmədov həbs edilib.**

"Təzadlar"ın əldə etdiyi məlumata görə, məmur şəhid ailələri və qazilərə qarşı dələduzluq əməli törətməkdə şübhəli bilinərək polis əməkdaşları tərəfindən saxlanılaraq həbs edilib. Şikayətçilər bildirib ki, T.Məmmədov bir neçə nəfərə ev, maşın, torpaq sahəsinin veriləcəyini vəd edib və bunun müqabilində müxtəlif məbləğlərdə pul vəsaiti alıb. Faktla bağlı Cinayət Məcəlləsinin 178-ci (Dələduzluq) maddəsi ilə başlanmış işin istintaqı davam etdirilir. Şəhid ailələri və qazilərə dəymiş zərərin ödənilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Qeyd edək ki, Tural Məmmədov özü də Vətən müharibəsi qazisidir. O, 2021-ci ildən icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsində çalışıb.

# "Təzadlar"ın qızılaxtaranlarla bağlı bir müddət əvvəl yazdıqları təsdiqləndi - HƏBSLƏR VAR

## *Maraqlı olan budur ki, qızılaxtaran dəstə neçə ay imiş ki, ərazidə çadır qurub generator quraşdırıbmış*

**Bir neçə gün əvvəl İsmayıllı rayon ərazisində (Lahıcda) tarixi- mədəni irsikizi darmadağın edərək qızıl axtaran dəstə tuyulub. "Təzadlar"a verilən məlumata görə, Mədəniyyət Nazirliyinin regional idarəsi əməkdaşlarının işə qarışmasından sonra bu gün polis və prokurorluq əməkdaşları ərazidə əməliyyat keçiriblər. Verilən məlumata görə, bir nəfər qaçıb, 3 nəfər isə həbs edilib.**

Maraqlı olan budur ki, qızılaxtaran dəstə neçə ay imiş ki, ərazidə çadır qurub generator quraşdırıbmış. Bəs ecə olur ki, bundan İsmayıllı rayon İcra Hakikiyyəti rəhbərliyinin, polis və prokurorluq əməkdaşlarının, bələdiyyənin, meşə təsərrüfatı işçilərinin xəbəri olmayıb???



***

Xatırladırıq ki, tanınmış tarixçi alim, professor Qafar Cəbiyev hələ 2024-cü ilin aprel ayının 15-də "Təzadlar" qəzet və saytında "Tarixi- mədəni irsimizə qənim kəsilənlər: onlar kimlərdir?" başlıqlı məqalə ilə çıxış etmişdir. Məqalə bu cinayətkar ünsürlərin əməllərinə həsr olunmuşdur.

Həmçinin **"Təzadlar"ın 2024-cü ilin 26 yanvar tarixli buraxılışında "Şəkidə qızılaxtaran dələduzlar tutuldu, amma..."** başlıqlı yazılar dərc edilmişdir. Hər iki yazının linkini təqdim edirik. Bu günədək susub tədbir görməyən dövlət qurumları bu məqalələrdən nəticə çıxarmalıdır.

**"Təzadlar"**

# Eldar İsmayılovun “Azərbaycan dünyası” jurnalının 25, özünün isə 75 illik yubileyi oldu

*Yubiley gecəsində dövlət rəsmiləri, xarici diplomatlar - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Ukrayna və İsrail səfirliklərindən səfir və nümayəndələr, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət və media nümayəndələri iştirak edirdilər*



**Bu günlərdə Beynəlxalq Muğam Mərkəzində (BMM) “Azərbaycan dünyası” beynəlxalq jurnalının yaranmasının 25, eyni zamanda jurnalın təsisçisi və baş redaktoru, “Dədə Qorqud” Milli Fondunun yaradıcısı - prezidenti, ictimai xadim, mesenat, türkoloq, publisist Eldar İsmayılovun (Eldar İsmayıl) 75 illik yubileyinə həsr olunan gecə keçirildi.**

***

Oxucuların diqqətinə çatdıraq ki, 1949-cu il iyulun 7-də Azərbaycan Bakı şəhərində ziyalı ailəsində anadan olan **Eldar İsmayıl oğlu İsmayılov** ilk ali təhsilini Moskva şəhərində - Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsində alıb. İllər sonra Dərbənd Humanitar Universitetinin filologiya fakültəsində rus dili və ədəbiyyatı ixtisası üzrə ikinci ali təhsilə yiyələnib.




SSRİ-nin çöküşündən sonra səhmdar cəmiyyətini yaradır və Türkiyə, Ukrayna və İsveçrə ilə əməkdaşlıq edərək bizneslə məşğul olub, daha sonra heraldika müəllif şirkətini yaradıb. Azərbaycan üçün suvenirlər, mükafatlar, orden və medallar istehsal edən fabrikə rəhbərlik edib.

İllərlə iş fəaliyyətində uğur qazanmış Eldar İsmayılov xeyriyyəçiliklə də məşğul olur.

Nəhayət, böyük vətənpərvər artıq 25 yaşı qeyd edilən “Azərbaycan dünyası” beynəlxalq jurnalını yaratmağa qərar verir və 2000-ci ilin mart ayında jurnalın ilk nömrəsi işıq üzü görür. Üç dildə - azərbaycan, rus, ingilis dillərində nəşr edilən bu nəfis tərtibatlı jurnalın əsas qayəsi, məramı Türk xalqlarının sarsılmaz birliyini qorumaq, Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın həmrəyliyini daha da gücləndirmək, eyni zamanda xalqlar və ölkələr arasında qardaşlıq, dostluq əlaqələrinə nail olmaqdır, hansı ki, yubiley gecəsində qarşıya qoyulan məqsədə çatıldığı da bəlli olurdu.

Jurnal bu illər ərzində Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, İsrail, ABŞ, Moldova, Ukrayna, Rusiya, İsveçrə, Almaniya, Rumıniya və digər dünya ölkələrində dünya azərbaycanlılarına həsr olunmuş çoxlu sayda layihər həyata keçirib.

Əsasən, azərbaycanlıların xarici ölkələrdə sıx yaşadığı ərazilərdə yayılan jurnalda soydaşlarımızın siyasi fəaliyyəti, eyni zamanda iqtisadi və mədəni nailiyyətləri işıqlandırılmaqdadır.

***

Qeyd edək ki, yubiley gecəsində dövlət rəsmiləri, xarici diplomatlar - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Ukrayna və İsrail səfirliklərindən səfir və nümayəndələr, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət və media nümayəndələri iştirak edirdilər.

Tədbirdə Azərbaycanın dövlət himni səsləndirildikdən sonra “Azərbaycan dünyası” beynəlxalq jurnalı və “Dədə Qorqud” Milli Fondunun fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu.

Moderatoru musiqişünas Nərgiz Kərimovanın olduğu tədbirdə açılış nitqi ilə çıxış edən BMM-nin direktoru, Əməkdar artist Sahib Paşazadə yubilyarı təbrik etdi, ona gələcək fəaliyyətində uğurlar arzuladı və BMM-nin təbrik məktubunu təqdim etdi.



Daha sonra Eldar İsmayılov çıxış edərək jurnal barədə ətraflı məlumat verdi.

“O, “Dədə Qorqud” Fondunun təsis etdiyi ordenlərə ölkəmizin rəsmi şəxsləri, ictimai xadimləri və ziyalıları layiq görülmüşlər. Jurnalın səhifələrində müstəqil Azərbaycanın, eyni zamanda ölkədən kənarda yaşayan yurddaşlarımızın siyasi, iqtisadi və mədəni nailiyyətləri işıqlandırılır, təbliğ edilir. “Azərbaycan dünyası” diasporumuzun görən gözü, danışan sözüdür!”, - deyə qeyd etdi.

Yubilyar jurnalın dünyaya sülh naminə “Dədə Qorqud” mükafatının, “Turan”, “Vətən Övladı”, “Qızıl Ürək”, “Ulu Türk”, “Ədalət Qılıncı”, “Həzi Aslanov”, “Albert Aqarunov” və “Mehriban Ana” ordenlərinin və Veteran döş nişanının təsisçisi olduğunu bildirdi, eyni zamanda diqqətə çatdırdı ki, “Dədə Qorqud” jurnalının idarə heyətinin fəxri üzvləri akademiklər, ziyalılar və görkəmli ictimai-siyasi xadimlərdir.



**Haşiyə:** Eldar İsmayılov 2013-cü ildən Azərbaycan Veteranlar Təşkilatı İdarə Heyətinin üzvüdür. 2016-cı ildən Heydər Əliyev adına Azərbaycan-Qazaxıstan Respublika Cəmiyyətinin vitse-prezidentidir. 2010-cu ildən Dağıstan Respublikasının Dərbənd şəhərinin fəxri vətəndaşıdır. 2013-cü ildən Şimali Kipr Türk Respublikasının Demokrat Partiyasının Azərbaycandakı fəxri nümayəndəsidir.

O, “Azərbaycan Xalq Diplomatiyası” mükafatı ilə, BMT-nin nəzdində Beynəlxalq İctimai Fondunun - “Altın Kıran” ordeni, mesenatlığına görə Ukrayna Pravoslav Kilsəsinin “II Müqəddəs Vladimir” ordeni, Əl-Farabi adına Qazax Xalq Universitetinin (KazNu) yubiley medalı ilə təltif olunub.

Eldar İsmayılov bir çox Avropa və beynəlxalq universitetlərin fəxri professorudur, eyni zamanda İstanbul “Yeditepe” Universitetinin Fəxri doktorudur.

***

Tədbirdə Azərbaycan və Ukrayna respublikaları arasında dost və qardaş münasibətlərinin inkişafı və qorunub saxlanılmasında xidmətləri olan **Ukraynanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Yuriy Qusyev** də iştirak edirdi. Səfir qonaqları Azərbaycan dilində salamladıqdan, yubilyarı təbrik etdikdən sonra təbrik çıxışını ana dilində davam etdirdi.

Ukraynalı səfir Eldar İsmayılova səfirliyin təbrik məktubunu və üzərində Ukraynanın milli arnamentləri olan hədiyyə təqdim etdi.

Yuriy Qusyevə təşəkkür edən yubilyar ona “Dünyaya Sülh Naminə Dədə Qorqud” mukafatını təqdim etdi.

**İsrail səfirliyinin nümayəndəsi Sofya Qrinberq** isə çıxışı zamanı Eldar İsmayılova İsrailin Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfirinin təbrik məktubunu və özünün xüsusi hədiyyəsini təqdim etdi.

Təbrik üçün Özbəkistandan təşrif gətirən **“Özbek Kadın Hakları” Dərnəyinin başkanı Ozoda İslomova** yubilyara “Özbek Kadın Hakları” Dərnəyinin “Vatan Onuru” ordenini təqdim etdi, eyni zamanda



ölkəsinin milli geyimi olan - qızıl iplərlə işlənmiş xalat hədiyyə etdi.

**Heydər Əliyev adına “Azərbaycan-Qazaxıstan” cəmiyyətinin sədri Eldar Günaydın** (Eldar Adıgözəlov) isə Eldar İsmayılova Türk dünyası naminə gördüyü xidmətlərə görə Türk Dünyasının böyük mükafatı olan “Qızıl Qələm” mukafatını, Qazaxıstandan göndərilmiş qazax xalqının milli geyimi olan xalatı təqdim etdi.

Tədbirdə general Pərviz Musayev, general Nazim Abbasov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, “Carçı” jurnalının rəhbəri Gülnarə Əmirquliyeva və digərləri təbrik çıxışları etdilər.

Musiqişünas Nərgiz Kərimova Eldar İsmayılova Türk dünyasının “Qorqud Ata” mukafatını təqdim etdi.

Təbrik üçün söz alan Əməkdar incəsənət xadimi, “Dədə Qorqud” Milli Fondunun vitse-prezidenti, “Azərbaycan Dünyası” beynəlxalq jurnalının Türkiyə üzrə təmsilçisi professor Rafiq Əziz türkçülüyün tarixi irsinin qorunması və beynəlxalq aləmdə tanınması uğrunda əvəzsiz xidmətlərinə görə Eldar İsmayılovu Fondun İdarə heyətinin qərarı ilə “Turan” ordeni ilə təltif etdi.

Çıxış edənlərdən - Fondun vitse-prezidenti Rüfət Həsənov da fondun və jurnalın fəaliyyəti barədə geniş məlumat verdi.

Tədbirdə Əməkdar artist, Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadəyə, musiqişünas Nərgiz Kərimovaya, “Azərbaycan dünyası” jurnalının əməkdaşları Sabir Dadaşov və Zarema Dadaşovaya, Əməkdar artist Tural Ağasıyevə və pianoçu Sevda İsgəndərovaya “Dədə Qorqud” Milli Fondunun təsis etdiyi ordenlər təqdim olundu.

Gecənin bədii hissəsində Xalq artisti Sərxan Sərxanın, Əməkdar artist Tural Ağasıyevin, pianoçu Fərəh İsmayılovanın, Əvəzağa Hacıyevin və digər sənətçilərin ifaları təqdim olundu.

***

Beləliklə, gözəl bir gecənin sonu gəldi! Və bu gecə, əslində Eldar İsmayılovun 75 illik həyat yoluna bir baxış idi. Onu təbrikə gələnlər bu gecədə yubilyarı bir daha tanıdılar, onu bir daha sevdilər, onun yaşadığı bu şərəfli ömrü film kimi seyr etdilər - sözün hər iki mənasında.

Bu tədbir sıradan biri deyildi: Eldar İsmayılovun, sanki həm özü, həm də ictimaiyyət qarşısında hesabat gecəsiydi. İllərlə bütün enerjisini, həyatını - həm maddi, həm də mənəvi cəhətdən Azərbaycanın xarici ölkələrdə təbliğinə, böyük turançılığa, türkçülüyə həsr etmiş bu böyük insanı düşündürən, yalnız ölkəsinin xoş gələcəyi, xaricdə yaşayan yurddaşları ilə əlaqələrin möhkəmləndirilməsi, onların da vətənlərinin bir parçası olmalarını unutmaması üçün “Azərbaycan dünyası” beynəlxalq dərgisini yaradaraq bu yükə çiyin verməsi olub. Hansı ki, zamanında - illər öncəsi bu jurnalı dərc etdirmək indiki qədər asan deyildi.

***

Bu gecə - Eldar İsmayılovun böyük şövqlə sevdiyi işə daha bərk sarılması üçün stimul verdi, yeni zirvələr fəth etməsi üçün tramplin oldu. İnanırıq ki, vətən fədaisi, dövlətini, xalqını sevən Eldar İsmayılovun ürəyinin bir parçası olan “Azərbaycan dünyası” dərgisinin fəaliyyəti daha böyük populyarlıqla davam edəcək.

**Yasəmən MƏMMƏDLİ**

# Adına şirkət açdılar, özünü isə 100 min manatlıq çox borca saldılar...

***Vəkil Araz Nurməmmədov:*** **“İsmayılov Elçin və İsmayılov Elvin adlı şəxslər öz çirkin niyyətlərini reallaşdırmaq üçün Əliyev Elxan Xubəli oğlundan istifadə etmiş və sonuncunun adına olan VÖEN və Asan imza nömrəsindən istifadə etməklə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş və külli miqdarda vergi borcu yaranmışdır”**

**...Dələduzluq baş alıb gedir- desək yanılmarıq. Özü də dələduzluğun da növləri var. 1.Işə düzəltmək adı ilə olan dələduzluq; 2.Bir evi bir neçə nəfərə satmaqla olan dələduzluq; 3.Pensiya düzəltmək adı ilə olan dələduzluq; 4.Borc almaq adı ilə olan dələduzluq... Belə dələduzluqların sayını və növünü nə qədər desən uzatmaq olar. Bunların sırasında bir maraqlı dələduzluq da var.**

Deməli, birbaşa tanıdığın və ya dolayısı ilə tanıdığın bir nəfər gəlib sənə deyir ki, “Mənim əlimdə yaxşı pul var. On görə də gəl sənin adına bir şirkət açaq. Filan-filan işləri görüb, yaxşı pul qazanaq. Mənim sənədlərimdə problem olduğu üçün öz adəma şirkət aça bilmirəm. Şirkət fəliyyətə başlayan kimi sənə hər ay filan qədər pul verəcəyik”. Bu yolla, yazıq pula ehtiyacı olan insan da inanır və beləcə cındırından cin hürkən bədbəxt kasıb olur şirkət rəhbəri. Bu dələduz da açılan şirkət vastəsi ilə qaz vurub qazan doldurur. Bu qazancdan isə dövlətə bir manat da olsun vergi ödənmir. Necə deyərlər, “can özgənin, mal özgənin”. Kasıb bir də onda ayılır ki, adına on min manatlarla vergi borcu olduğu haqda vergi orqanından bildiriş gəlib. Bu da dələduzluğun çox işlənən növlərindən biridir.



***

Beləliklə, Bakı şəhər sakini Əliyev Elxan Xubəli oğlunun da başına məhz belə bir oyun gəlib və bu barədə redaksiyamıza müraciət edib. Istəyir ki, onun başına gələnləri aidiyyəti qurum rəhbərlərinin diqqətinə çatdıraq və problem həllini tapsın. “Durduğun yerdə işə düşəsən”- bax buna deyiblər. Müraciətdən məlum olur ki, el dilində desək, “çerez-çerez” tanıdığı Elçin və Elvin İsmayılov qardaşları onun adına şrkət açıblar. Bildiriblər ki, xaricdən müxtəlif avadanlıqlar gətirib satacaqlar. Elxan da guya anbarda işləyəcək və ayda 800 manat əmək haqqı alacaq. Bundan əlavə, anbardan mal aparan sürücülər də hər gün ona 10-15 manat hörmət edəcəklər. Beləcə, Elxanı şirnikləndirib adına şirkət açırlar. 20 gündən sonra E.Əliyevin telefonuna Dövlət Vergi Xidmətindən bir milyon 700 manatdan çox vergi borcu olduğu barədə SMS gəlir. Elxan dərhal özünü Nərimanov rayony ərazisindəki Vergi Departamentinə çatdırır. Orada hər şeyi başa salandan sonra deyirlər ki, narahat olma, VÖEN-i bağladıq. Elxan eyni zamanda dələduz qardaşlara da zəng edir ki, bunun nə oyun olduğunu öyrənsin. Amma və lakin, dələduzlara zəng çatmır. E.Əliyev heç olmasa VÖEN-nin bağlanmasından təsəlli tapır ki, daha borc üst-üstə yığılmayacaq. Amma sən saydığını say, gör Vergidə necə sayırlar?

Bəli, VÖEN-nin bağlandığına arxayın olan Elxan, işləmək üçün planlaşdırdığı xarici ölkəyə getmək istəyir. Hava limanında Elxana bildirirlər ki, sənin adında “STOP” var və ölkədən çıxa bilməzsən. Elxanın yenidən araşdırmasından sonra məlum olur ki, VÖEN bağlanmayıb. Dəfələrlə Vergilər Departamentinə, Dövlət Vergi Xidmətinə müraciət edəndən sonra VÖEN bağlanır. Bu müddət ərzində isə E.Əliyevin adında, müxtəlif çıxılmalardan sonra 110 min 566 manat vergi borcu qalır. Buna görə də ölkədən çıxa bilmir.

Nəhayət, bu problemi hüququ yolla aradan qaldırmaq üçün zərərçəkən tanınmış vəkil, Vəkillər Kollegiyasının üzvü Araz Nurməmmədovla müqavilə bağlayır. E.Əliyevin bizimlə söhbətində bildirdiyinə görə, A.Nurməmmədov baş vermiş bu cinayətlə bağlı aidiyyəti dövlət qurumlarına bir neçə dəfə rəsmi vəkil sorğusu göndərib. Lakin bu qurumlar bir ildən şoxdur ki, heç bir tədbir görmürlər. Dələduzların adı, soyadı və atalarının adı, şəxsiyyət vəsiqələri, telefon nömrələri və s. məlum olsa da, guya indiyə qədər onları tapa bilmirlər. Odur ki, E.Əliyev son ümid yeri kimi redaksiyamıza üz tutub. Istəyir ki, onun bu problemini dərc edərək, aidiyyəti dövlət qurumlarının diqqətinə çatdıraq...

***

Biz də bu məsələnin hüququ tərəfinə aydınlıq gətirmək üçün E.Əliyevin hüquqlarını müdafiə edən vəkil Araz Nurməmmədovla əlaqə saxladıq. A.Nurməmmədov məsələ ilə bağlı bunları dedi:

- Bəli, belə bir problem var. Bir ildən çoxdur mübarzə aparıram. Məsələ belədir. Mən problemin həlli üçün Azərbaycan Respublikasının Baş Prokuroru cənab Kamran Əliyevə, Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi cənab Nazim Rəcəbova, Azərbaycan Respublikasının Daxili İşlər Naziri cənab Vilayət Eyvazova, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi cənab Orxan Nəzərliyə baş vermiş cinayət işi barədə rəsmi ərizə ilə məlumat vermişəm. Ərizəmdə bunları göstərmişəm: “Hüquqlarını təmsil etdiyim şəxs Əliyev Elxan Xubəli oğlu 2 il öncə Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsində yaşayan İsmayılov Elçin Ibadət oğlu və qardaşı İsmayılov Elvin İbadət oğlu adlı şəxslərin işə düzəltmək məqsədilə ondan öz adına VÖEN açılmasını xahiş etmişlər. Yalnız VÖEN açıldıqdan sonra işə düzələ biləcəyini bildirmişlər. Bundan sonra yuxarıda adları çəkilən şəxslərlə birlikdə Bakı şəhəri Nərimanov rayonunda yerləşən 7 saylı ASAN Xidmətə yaxınlaşmışlar. Orada VÖEN (7401287272) açılmış və Əliyev Elxan Xubəli oğlunun adına asan imza nömrəsi alınmışdır.

İsmayılov Elçin İbadət oğlu və İsmayılov Elvin İbadət oğlu adlı şəxslər Əliyev Elxan Xubəli oğlunun adına olan VÖEN-i və asan imza nömrəsini sonuncudan almış və işə düzələcəyi günü gözləməyi bildirmişdir. Lakin bir müddət sonra məlum olmuşdur ki, İsmayılov Elçin və İsmayılov Elvin adlı şəxslər öz çirkin niyyətlərini reallaşdırmaq üçün Əliyev Elxan Xubəli oğlundan istifadə etmiş və sonuncunun adına olan VÖEN və Asan imza nömrəsindən istifadə etməklə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş və külli miqdarda vergi borcu yaranmışdır. Hazırda 110566 (yüz on min beş yüz altmış altı) manat vergi borcu vardır. Qeyd edim ki, adları çəkilən şəxslərə etibarnamə verilməmişdir. İşin faktiki hallarından göründüyü kimi, İsmayılov Elçin və İsmayılov Elvin adlı şəxslər Əliyev Elxan Xubəli oğlunun etibarından və savadsızlığından sui-istifadə etmiş, nəticədə onun adına xeyli miqdarda vergi borcu yaranmışdır...

**-Araz bəy, bəs qanunlarımız bu barədə nə deyir?**

-Azərbaycan Respublikası CPM-nin 46.2-ci maddəsinə əsasən cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

Həmin Məcəllənin 207.5-ci maddəsinə əsasən törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi başlamaq (maddə 207.5.1) və ya cinayət işinin başlanmasını rədd etmək haqqında (maddə 207.5.2) qərarlardan birini qəbul etməlidir. Həmin Məcəllənin 212.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir.... Bu məzmunlu müraciətimi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, Baş İdarənin rəis müavini - cənab Xaliq İsgəndərova da göndərmişəm. Amma hələ ki, heç bir nəticə yoxdur. Ara yerdə haqsızlıqla üzləşmiş vətəndaş əzab çəkir. Halbuki bu işdə onun heç bir günahı yoxdur. Bütün bu göstərilənləri nəzərə alaraq, həmin qurumlardan faktla bağlı araşdırılma aparılmasını, təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsini və cinayət işinin başlanılmasına köməklik göstərilməsini xahiş etmişəm. Amma hələ də cinayəti törədən şəxslər tapılaraq, məsuuliyyətə cəlb edilməyiblər...

***

**Artıq hər şey aydındır. Bəs görəsən, Baş prokurorluqda və Daxili İşlər Nazirliyində göz önündə baş vermiş cinayətlə bağlı niyə tədbir görülmür? Yəni adı, soyadı və atalarının adı məlum olan dələduzları tapmaq elə də bir çətin məsələdir? Bu dələduzlar dövlətə bu qədər ziyan vurublarsa, hüquq-mühafizə orqanları niyə onları bu bir ildə tapmaq istəmir? Nəticədə qanunlarımıza arxalanan vətəndaş, hüquq-mühafizə orqanlarından və dövlətdən narazı qalır. Vəkilin və vətəndaşın müraciətinə belə biganə yanaşmaq olmaz. İnanmaq istərdim ki, bu yazıdan sonra adları yuxarıda qeyd olunan hüquq-mühafizə orqanlarının rəhbərləri məsələni tezliklə həlli üçün lazımı göstəriş verəcəklər. İndiyə qədər məsələnin həllinə biganə yanaşan, həm hüquq-mühafizə orqanlarının, həm də Dövlət Vergi Xidmətinin məsul şəxslərinin cəzalandırılması məqsədə uyğun olardı.**

**Hazırladı və təqdim etdi:**
**Elçin MƏMMƏDLİ**

# Söyüş qəhrəmanları: Qabil Məmmədov və digərləri istintaqa çağrıldı - RƏSMİ

**(Əvvəli 3-cü səhifədə)**

Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4, 182.2.1, 182.2.4, 214.2.1, 214.2.2, 214.2.3, 214-1, 214-2, 32.3, 34.2, 233, 32.3, 34.2, 315, 32.3, 34.2, 186.2.1, 32.3, 34.2, 186.2.2, 32.3, 34.2 və 127.2.1-ci maddələri ilə təqsirləndirilən Q.Məmmədovun Azərbaycan Respublikası ərazisində 2015-2017-ci illər ərzində ayrı-ayrı şəxsləri müxtəlif dövlət qurumlarına işə düzəldəcəyi, onlara pensiya və sosial müavinət verilməsini təmin edəcəyi ilə aldadıb etibarlarından sui-istifadə etməklə 10 nəfər şəxsə məxsus ümumilikdə 29.597 manat məbləğində nağd puldan ibarət özgə əmlakını ələ keçirib zərər çəkmiş şəxslərə xeyli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq etməsinə, bundan başqa, 30.06.2019 və 21.10.2019-cu il tarixlərdə internet informasiya resurslarında Azərbaycan Respublikası ərazisində qabaqcadan əlbir olduğu digər şəxslərlə birlikdə terrorçuluq cinayət əməllərinin törədilməsinə yönələn açıq çağırışlar etməsi və bu cür məzmunlu materialları açıq olan internet resurslarında yaymaqla terrorçuluq hərəkətlərini çıxışlarında ifadə etməsinə, həmçinin, 2019-cu ilin əvvəllərindən 2020-ci ilin aprel ayınadək olan müddət ərzində qabaqcadan əlbir olduğu digər şəxslərlə birlikdə müxtəlif valyutalarda 10.000 manat pul vəsaitini birbaşa və dolayı yolla “WhatsApp” proqramı üzərindən Azərbaycan Respublikasında olan şəxslərə terrorçuluq məqsədilə göndərməklə terrorçuluğu maliyyələşdirilməsinə yönələn hərəkətlər edilməsinə, eyni zamanda 14.07.2020-ci il tarixdə qabaqcadan əlbir olduğu digər şəxslərlə birlikdə Azərbaycan Respublikasında ictimai sabitliyin pozulmasına səbəb olan, ictimai qaydanı kobud surətdə pozan, hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamaqla əlaqədar olan və nəqliyyatın, təşkilatın normal fəaliyyətinin pozulmasına səbəb olan, hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən zor tətbiq etməklə müqavimət göstərilməsi və xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar onlara qarşı zor tətbiq edilməsi ilə bağlı, habelə öz qulluq borcunu yerinə yetirən zərərçəkmiş şəxsin əmlakını qəsdən məhv etmə və zədələməklə ağır nəticələrə səbəb olan və ziyan vuran cinayətin törədilməsini cinayətin iştirakçılarının fəaliyyətlərini əlaqələndirməklə, cinayətin törədilməsini istiqamətləndirməklə, onlarda cinayət törətmək qətiyyətini möhkəmləndirməklə təşkil və rəhbərlik etməsinə, göstərilənlərlə yanaşı 2023-cü ilin oktyabr ayından etibarən davamlı surətdə qabaqcadan əlbir olduğu digər şəxslərlə birlikdə özgənin xeyli miqdarda əmlakını əldə etmək məqsədi ilə internet informasiya resurslarında Azərbaycan Respublikasında yaşayan şəxsin şərəf və ləyaqətini alçaldacağı hədəsi ilə 28.500 manat məbləğində pulu hədə-qorxu ilə tələb etməsi və 24.02.2014 və 27.02.2024-cü il tarixlərində şəxsin barəsində rüsvayedici məlumatların internet informasiya resurslarında qeyri-məhdud sayda internet istifadəçiləri arasında paylaşmasına əsaslı şübhələr müəyyən olunub.

Təqsirləndirilən digər şəxs - T.Sadıqlının 2016-cı ildə Almaniya Federativ Respublikasında yaşayan Azərbaycan Respublikasının vətəndaşını “oturum izni” ala biləcəyini vəd etməklə etibarını qazanıb aldadaraq 1260 manat məbləğində əmlakını ələ keçirməsinə və vətəndaşlıq almaq məqsədilə şəxslərin Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən siyasi partiyaların üzvləri kimi siyasi baxış və mövqelərinə görə təqib və təzyiqlərə məruz qalmaları, kütləvi aksiyalarda iştirak edib polis əməkdaşlarına müqavimət göstərdiklərinə görə məhkəmələr tərəfindən inzibati həbs olunmaları, barələrində cinayət işi başlanmaqla hüquq-mühafizə orqanlarına çağırılmaları kimi məzmununa bilə-bilə həqiqətə uyğun olmayan, yalan məlumatlar daxil edilib, dövlət təşkilatlarının müvafiq imza, blank, çap və əlyazma mətnləri birbaşa icra olunmayaraq, rəqəmsal qurğu vasitəsilə surəti çıxarılmaqla elektrofotoqrafik çap üsulu vasitəsilə çap qurğusunda icra edilmiş hüquq verən rəsmi sənədlərin qanunsuz hazırlamasına, bundan başqa, 19 aprel 2019-cu il, 8 iyun 2019-cu il, 15 iyun 2019-cu il və 7 avqust 2019-cu il tarixlərdə internet informasiya resurslarında Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyən edilib.



# Azərbaycanda Kinostudiya “ölüb”, dəfn edən lazımdır: RASİM BALAYEVDƏN CİDDİ NARAHATLIQ

## “Kimə, hansı təşkilata nə qədər pul verirlərsə bu açıqlanmalıdır...”

**Azərbaycanda son 30 ildə üzə çıxarılıb xarici rejissor və tamaşaçılara göstərilməli bir filmimizin olmaması həmişə ürək ağrısı ilə müzakirə edilib. Bircə misal: Ermənistanın 30 illik işğalını və Qarabağdakı vandalizmi, Ermənistanın 30 illik işğalını və Qarabağdakı vaxnəliyini özündə əks etdirən bədii filmimizin olmaması buna sübutdur. Niyə müharibə görməyən ABŞ-ın istehsal etdiyi müharibə filmləri dünyanı mat qoyur, amma müharibədə dəhşətlər yaşamış Azərbaycanda ortalığa çıxarılmalı bir samballı filmimizin olmaması təəssüf doğurur.**

Martın 10-da “Cinema Talks” çərçivəsində keçirilən panel müzakirədə də bu məsələ araşdırılıb, ağrılar dilə gətirildi. Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor Əlisa Cabbarovla Kino Agentliyinin direktoru Orxan Fikrətoğlu arasında bu səbəbdən gərginlik yaşanıb. Əlisa Cabbarov deyib ki, bu gün kino sahəsinə ayrılan pullar təyinatı üzrə xərclənmir. O, aidiyyəti qurumların bir-biri ilə yola getmədiklərini də vurğulayıb: **“Ayrılan pullar hesabda yığılıb qalıb, kino ictimaiyyəti bunun səbəbini bilmir. Dövlət tərəfindən kino istehsalı üçün ayrılan vəsait lazımi formada xərclənmir”.**

Azərbaycan Respublikasının Kino Agentliyinin direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu cavabında deyib: **“Statistikaya əsaslanmaq lazımdır. Kinoya ayrılan vəsait lazımı istiqamətdə xərclənir. Bu yaxınlarda “44”, “Borc”, “Doğma torpaq” kimi filmlərin təqdimatı olacaq. Deyəndə bunları da demək lazımdır”.**

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Rasim Balayev jurnalistlərə açıqlamasında daha sərt danışıb: **“Kinoya ayrılan və xərclənən pullar şəfaf olmalıdır. Məsələn, bu gün “Azərbaycanfilm”ə pul vermirlər. Niyə? O boyda studiya qalıb göz dağı kimi. Əgər studiya varsa niyə ona pul ayrılmır? Kimə, hansı təşkilata nə qədər pul verirlərsə bu açıqlanmalıdır...”.**

“Təzadlar” xatırladır ki, vaxtilə kino məbədi olmuş Cəfər Cabbarlı adına Kinostudiya uzun illərdir boş dayanıb, pul ayrılmır. Vaxtilə kinostudiyanın həyətindən kabab iyi gəlirdi, kino çəkilişlərinə baxış bu tüstüdə itib-batırdı. Vaqif Mustafayev özünün rejissorluğu ilə bir film çəkəndən sonra çəkilib durdu kənarda.

“Təzadlar” dəfələrlə təklif verib və tənqidindən də qalmayıb ki: əttökən, bayağı teleseriallara, keyfiyyətsiz və məzmunsuz bədi filmlərə ayrılan pulların hesabına xarici ölkələrdən rejissorlar dəvət edib normal bədii film çəkmək olar. Allahın ermənilərı, gürcüləri elə filmlər çəkirlər, özümüzün imkanlarımıza baxanda təəssüflənməyə bilmirik... Bir sözlə, Azərbaycanda C.Cabbarlı adına kinostudiya ölüb, dəfn edən lazımdır... “Ölü” yiyəsi olan Mədəniyyət Nazirliyi isə...

Nə isə...

**A.Məmmədli**

# Kim kimi cərimə etməlidir?!

*Cümə günü idarə olunmayan Bakı küçələrində 4 saat avtomobildə sürünən, vaxtını, əsəblərini, benzin ehtiyatını və görəcəyi işləri itirən adamlardan nəinki üzr istənildi, əksinə, adamları borclu çıxartdılar*

**...Ötən həftənin cümə günü Bakıda nəqliyyat ilinin ən dəhşətli bir günü yaşandı. Hələ belə əzabverici tıxac görünməmişdi.**

Taksidə, xidməti, ya şəxsi avtomobilində məsələn, “Gənclik”dən “Azneft”ə 4 dəqiqəlik bir iş dalınca gedib-qayıdanlar ən azı 4 saat küçələrdə süründülər. 2 saat üzü aşağı, 2 saat üzü yuxarı. Və işlərini də görə bilmədilər. Bakı şəhəri, sanki yiyəsiz qalmışdı. İntellektual idarəetmə intellektsiz idarəetməyə dönmüşdü. Yüzlərlə, minlərlə, on minlərlə maşın küçələrdə bir-birinə qısıla-qısıla addım-addım... getmirdi, sürünürdü. At izi it izinə qarışmışdı: o sıxlıqda nə küçə görünürdü, nə küçənin asfaltı, nə asfaltın üstündəki yol nişanı... Amma və lakin...

Burada icazənizlə bir haşiyə çıxım, “amma”sını sonra deyim. Tələbə vaxtı oxuduğum V.Ovçinnikovun “Sakura budağı” kitabında belə bir ştrix vardı. Yaponiyada olanda bir gün səhər tezdən müəllifin qaldığı otel otağının qapısı döyülür. Yapon qulluqçu təzim edərək ona bir bağlama uzadır. O, bağlamanı açıb içində kiçik suvenir hədiyyə və bir kağız görür. Kağızda şəhər bələdiyyəsi yazırdı ki, gündüz saat 12-dən 12:30-dək Sizin qaldığınız otağın pəncərəsinin önündən keçən küçədə kanalizasiya xəttində təmir işləri aparılacaqdır. O zaman motor səsinin yaradacağı narahatlığa görə Sizdən üzr istəyirik...

İndi qayıdaq Bakıya.

Cümə günü idarə olunmayan Bakı küçələrində 4 saat avtomobildə sürünən, vaxtını, əsəblərini, benzin ehtiyatını və görəcəyi işləri itirən adamlardan nəinki üzr istənildi, əksinə, adamları borclu çıxartdılar. Həmin axşam sürücülərin telefonuna mesajlar göndərdilər ki, bəs gündüz filan küçədən keçəndə yerdəki xətti tapdalamısınız. Ona görə də barənizdə inzibati xəta haqqında protokol tərtib edilib (“Yol nişanlarının tələblərinə riayət edilməməsi”). 40 manat cərimə ödəməlisiniz!



Bax belə!

Bütün günü küçələrdə yüzlərlə, minlərlə, on minlərlə maşın bir-birinin böyrünə sıxıla-sıxıla ehtiyatla sürünüb. Aşağı da baxanda dəmir görünüb, yuxarı da baxanda dəmir görünüb. Ümumiyyətlə, küçələrdə sanki həyat dayanmışdı. Əsil infarkt mühiti vardı. Yollarda kilometrlər boyunca ancaq tıxac idi, nəqliyyat tənzimlənmirdi, aləm bir-birinə qarışmışdı. Adamlar mənzil başına gedib çata bilmirdi, görmək istədikləri işi vaxt itgisi səbəbindən görə bilmirdi.

Saatda 0,5 km sürətlə qarış-qarış gedən avtomobil yerdəki xətti basdalasa nə olacaqdı, basdalamasa nə olacaqdı? Burda cəzaya layiq qəza şəraiti yaratmaq mümkün deyildi. Əslində qəza şəraiti o xəttin üstündə yox, əsas vəzifəsi şəhəri, küçələri, yolları, nəqliyyat axınını idarə edib nizamlamalı olan əlaqədar qurumların kabinetlərində baş verirdi.

Tıxaclarda saatlarla vaxtını itirən adamların hər dəqiqəsi qızıl deyilmi?! İnsan ömründən gedən bu dəqiqələri, saatları, günləri, itirilən əsəb sistemini, sağlamlığı hansı vəsaitlə kompensasiya etmək mümkün olacaqdır?!

Qoy özləri desin: o gün kim kimi cərimə etməli idi?!

Problem heç də 40 manatda deyil. O tıxacda onsuz da hər maşın az qala 50 manatlıq benzin yandırdı. Problem paytaxtda o situasiyanı yaradanlarda, o situasiyanı idarə edə bilməyənlərdə və o situasiyanı nəzərə almadan göydəki avtomatik foto çəkilişini götürüb analiz etmədən, heç nəyi nəzərə almadan zavallı sürücülərə haqsız, ədalətsiz cərimələr yazanlardadır!

Şəkili çəkən robotdur, bəs onu yazıb göndərənlər?!

**Akif ƏLİ,**
**Yazıçı-kinoşünas**

# “Əgər universitetlərdə bilikdən çox əyləncə prioritet olursa, deməli, biz diplom verən bir sistem qurmuşuq”

## Universitet - əyləncə yeri deyil!

**Biz ali təhsilin mahiyyətini tamamilə unutmuşuq. Universitet əyləncə mərkəzi deyil, buraya gənclər öyrənmək, araşdırmaq, bilik qazanmaq üçün gəlirlər. “Təzadlar” xəbər verir ki, bu fikri tanınmış təhsil mütəxəssisi Kamran Əsədov sosial media hesabında bildirib. O vurğulayıb ki, indi elə bil ki, əsas məqsəd təhsil almaq deyil, sosial media üçün kontent yaratmaq, “trendlərə düşmək” və ya “universitet həyatını” şouya çevirməkdir.**

**“Bunu normal hesab edənlər anlamır ki, universitetin bir imici, akademik dəyəri və elmi mühiti var. Hər yerin bir qaydası var - teatrda səssiz oturursan, məsciddə sayğılı davranırsan, xəstəxanada nizam-intizama əməl edirsən. Bəs universitet? Universitetin hörmətini niyə bu qədər ayaqlar altına atırıq?**

**Ali təhsil müəssisəsinə girən hər kəs anlamalıdır: sən burada bir akademik mühitin içindəsən, hərəkətlərin yalnız səni deyil, bütövlükdə ali təhsil sisteminin nüfuzunu təyin edir! Əylənmək başqa şeydir, universitetin mövcud akademik mühitini pozacaq şəkildə davranmaq başqa şey. Bu qəbulolunmazdır!**

**Əgər universitetlərdə bilikdən çox əyləncə prioritet olursa, deməli, biz diplom verən bir sistem qurmuşuq, amma elmi düşüncə və intellektual inkişaf verən bir sistem qura bilməmişik. Bunun nəticəsində də təhsilimiz beynəlxalq reytinqlərdə yer tapmır, məzunlarımız real bilik və bacarıqdan məhrum olur. Çünki universitet dəyərini itirəndə, oradan çıxan “təhsilli” insanların da dəyəri azalır!**



**İndi qərar verək: universitetləri elm və bilik məkanına çeviririk, yoxsa şou mərkəzinə? Ciddi ali təhsil istəyiriksə, universitetlərin imicini qorumalıyıq!”,** - deyə mütəxəssis bildirib.

**Y.Məmmədli**

## Abşeron səhifələri

**Müəllif bu kitabını Azərbaycanda yarım əsrdən çox sıx münasibətdə olduğu gənclik illərinin dostlarına və həmkarlarına - Asif və Azər Cahangirovlara, Adıl Minbaşıyevə, həmçinin, təəssüf ki, indi aramızda olmayan, "Sumqayıt" qəzetinin uzun illər redaktoru olmuş, özü də daxil olmaqla bir neçə jurnalist nəslini yetişdirmiş Mark Qriqoryeviç Voroşilovskiyə, həmçinin müəllifin özünə ən yaxın insan, heyrətamiz, inanılmaz istedada malik, ömrümün sonuna qədər daim ürəyimdə əbədi xatirəsi qalan Fərhad Ağamalıyevə həsr etmişdir. "Təzadlar" xatırladır ki, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, Dünya Azərbaycanlıları Konqresinin və "Aziz"- İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının dəstəyi ilə çap edilmiş kitab tanınmış hüquqşünas, Baş ədliyyə müşaviri Adil Minbaşının tövsiyəsi ilə yəhudi dilindən tərcümə edilərək onun tərəfindən redaktə olunmuşdur, 166 səhifədən ibarətdir.**

**İsrail, 2023 il.**



# Mark Qorin: "MAVİ DƏNİZIN SAHİLLƏRİNDƏ"

*"Təzadlar" Bakıda anadan olmuş, uzun illər Azərbaycanda yaşayıb fəaliyyət göstərmiş, bir müddətdir İsraildə yaşayan, ölkənin "Sputnik" qəzetinin baş redaktoru, yazıçı-jurnalist Mark Qorinin Azərbaycan haqqında yazdığı kitabının yəhudi dilindən cərcüməsini təqdim edir...*




## 1-ci HİSSƏ

Beləliklə:

### "Mavi dənizin sahillərində"- Abşeron səhifələri

*("Qayıdış" romanından fəsillər)*

***...Bu yaxınlarda Yerusəlimdəki "Klik" nəşriyyatı Tel-Əvivin məşhur jurnalisti Mark Qorinin "Qayıdış" romanını nəşr edib... Müəllif Bakıda zabit ailəsində anadan olub, lakin uşaq ikən atasının yeni iş yerinə təyinatı ilə əlaqədar Donbasa köçüb. Donetsk Universitetinin tarix fakültəsini bitirdikdən sonra Mark Azərbaycana qayıdıb, jurnalist karyerası Sumqayıt şəhər qəzetində başlayıb. Azərbaycan mətbuatında müntəzəm dərc olunub. Fərhad Ağamalıyev və Mark Qorin "Mənim şəhərim Sumqayıtdır!" televiziya filminin ssenarisini birgə yazıblar.***

O, RDKİ-nu (Kinematoqrafiya İnstitutunun ssenari şöbəsi) bitirdikdən sonra Moskvada jurnalların birində işləyib.

Mark Qorin hazırda İsraildə yaşayır və işləyir, əvvəlki kimi jurnalistika ilə məşğuldur. O, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçı müharibədə Azərbaycanın haqq səsinin müdafiəçilərindən olub. İstər baş redaktoru olduğu "Sputnik" qəzetində, istərsə də İsraildə dərc olunan rusdilli digər mətbuat orqanlarında və televiziya proqramlarında Azərbaycan həqiqətlərinin İsrail və dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına fədakarlıqla çalışıb. Eləcə də Yəhudilərlə Türk- Azərbaycan xalqlarının dostluq əlaqələri, bu xalqların tarixı kökləri, eləcə də Yəhudilərin təqiblərə məruz qaldıqları tarixi dövrlərdə türk və türkəsilli xalqların onları müdafiə və himayə etmələri faktlarını araşdırıb, tarixi yaddaşı təzələməklə bu xalqların dostluq və birliklərinin möhkəmləndirilməsinə öz töhfəsini verən tarixçi-jurnalistdir.

Kitab bütövlükdə bundan bəhs etməsə də, müəllif Azərbaycanda publisist kimi püxtələşdiyi illəri israrla nəzərdən keçirir, bu dövrə çoxlu səhifələr ayırır. Belə insanlar üçün başqa dənizlərin dalğalarının səsi sözsüz ki, onları yumşaq Abşeron qumunun unudulmaz hərarətinə gətirir...

## MÜƏLLİFDƏN BİR NEÇƏ SÖZ

"Qayıdış" romanının baş qəhrəmanı - Zamandır. Planet üçün fundamental əhəmiyyət kəsb edən zaman. Mənə elə gəlir ki, o, dünyamızı dəyişib məcrasından çıxara bildi - Zaman, bacardığı kimi yox, mənim fikrimcə, dünyanı lazım olan məcraya çevirə bilmədi. Zaman yazıçının taleyində çox mühüm yer tutur və bununla da onun həyatının insani və peşəkar mənada formalaşmasına imkan verir.

***

**...1963. "Xruşşov əsri" sona çatır, siyasi "donmalar" yenidən gündəmə gəlmək üzrədir, lakin çoxları bunu hələ də anlamır. Romanın baş qəhrəmanı, gənc moskvalı jurnalist Aleksandr Pimenov gözlənilmədən özünü "qaynar" və təhlükəli beynəlxalq arenada tapır - ABŞ-da Prezident Con Kennedinin ölümünə görə məsuliyyəti, məhkəməsi olmadan bir neçə il SSRİ-də yaşamış amerikalı Osvaldın üzərinə durdururlar. Onu həbs edib, yenidən buraxırlar... Axı, bu necə ola bilərdi?**

*...1963. "Xruşşov əsri" sona çatır, siyasi "donmalar" yenidən gündəmə gəlmək üzrədir, lakin çoxları bunu hələ də anlamır*

Romanda "böyük siyasət" adi gənclərin taleyində qəribə şəkildə əks etdirilir və onlarda təhdidedici şəkildə əks olunur: Saşa və dostları bu Osvaldın hansı "yuvanın quşu" olduğunu anlamaq istəyirlər, lakin onların aktiv "maraqları" müəyyən xidmət orqanları tərəfindən bəyənilmir. Ona qarşı heç bir rəsmi şikayət olmasa da, o dövrün qaydalarına görə, Saşa nüfuzlu jurnalı tərk etmək məcburiyyətində qalır. Nə etməli? Nüfuzlu paytaxt məmuru, yaxın keçmişdə baş zabit rütbəsi olan cəbhəçi və siyasi komissar adını daşıyan atamin Bakıda məskunlaşan keçmiş həmkarları var ki, o, ömrünün sonunadək onlarla hərbi təmaslarda doğmalaşıb. Təbii ki, kömək edəcəklər.

Saşa Azərbaycana yollanır və burada o, respublika standartlarına uyğun iri, paytaxt yaxınlığında yerləşən, bir sənaye mərkəzi olan şəhərin qəzetinə tövsiyə olunur.

Təbii ki, söhbət Sumqayıtdan gedir: romanda şəhərin adı çəkilmir ki, konkretliklər müəllifin əl-qolunu bağlamasın və bədii əsərdə əks olunan insanlara canlı xüsusiyyətlər verməyə "qarışmasın". Ancaq "istehsalat səhnələri"ni, küçələrin əlamətlərini o vaxtkı reallığa uyğunlaşdırmaq lazım deyildi. Və buna baxmayaraq, ümid edirəm ki, altmışıncı-yetmişinci illərin Sumqayıtını - təsvir olunan hadisələrdən bir qədər gec, sözün əsl mənasında yeddi il öncə gəldiyim gənclik şəhəri olan Sumqayıtı xatırlayan oxucular üçün də çox şey tanınacaq. Mən də öz qəhrəmanım kimi, o dövrün sərt və rəhmsiz küləkləri ilə gəlib çatdım... Və heç vaxt unuda bilməyəcəyim bu k ü ç ə n i sevdim.

***

...Doğrudan da, ya doğulduğum yerdə faydalı olmuşam, ya da sonradan anladığım kimi, taleyimi zamanın əlamətləri ilə müqayisə edərkən anladım ki, bəxtim gətirib. Həmin illərdə Azərbaycana parlaq, çox nüfuzlu, tələbkar şəxsiyyət və ölkə başçısı Heydər Əliyev rəhbərlik edirdi. Respublikanın göz önündə olan yenilənən addımları, uğurları onun adı ilə bağlı idi. O illərin şən, tolerant, enerji dolu mühiti qonaqpərvərlik və alicənablıq ənənələri ilə birləşərək çox vaxt konkret adamların taleyini müəyyən edirdi - burada işləmək və təkmilləşmək istəyən insan dəstəyə arxalana bilərdi və uğur qazanmaq üçün hər cür imkana malik idi. Bu dövr məni böyütdü və yetkin, peşəkar jurnalist olmağıma kömək etdi.

Yarım əsrdə çox şey görmüşəm, amma bu şəhərə, bu torpağa, gəncliyimin bir parçası olmuş illərimə olan həssas münasibəti yaddaşımda və ruhumda əbədi olaraq saxlamışam.

O dövrün ab-havasını və ecazkar dünyasını, ona olan sevgimi canlandırıb bugünkü oxucuya çatdırmağa çalışdım. Bunu nə dərəcədə edə bildiyimi siz oxucuların mühakiməsinə həvalə edirəm.

Sizi əmin etmək istəyirəm ki, mətndə mövcud olan hər şey - konkret hadisə və bunların fonunda personajların tərcümeyihalı, hərəkətləri və dialoqlar həm bədii ədəbiyyata, yazdıqlarım isə dövrün reallığına yaxınlaşdırmaq istəyimin bəhrəsidir. Müəllif olaraq süjetin konturunu və təfərrüatlarını sınayaraq, mümkün qədər reallığı qələmə almağa, həmin vaxtlarda gördüyünü və hiss etdiyini real şəkildə söyləməyə çalışmışam. Təbii ki, bu səhifələrdə canlandırılanların çoxu mənim tanıdığım və ya eşitdiyim mənə yaxın və o qədər də yaxın olmayan insanların xüsusiyyətlərini sezdirir. Ancaq bütün adlar, personajların görünüşü, onların portretləri təxəyyülün nəticəsidir, təsadüfi olaylar (və ya uyğunluq) gərək sizi çaşdırmasın.

***

*...Xəzərin dalğalarını, Balaxanı mayını,*
***Xoşbəxtlik bilib, məzara apararam.***

*Sergey Yesenin*

## I FƏSİL

### Saşa Azərbaycana gəlir

-Əyləş, - təxminən əlli yaşlarında, başı balaca, çox az miqdarda anlaşılmaz çalarlı saçlarla bəzədilmiş balaca bir adam gözünü qırpmadan, o vaxtlar nadir rast gəlinən çərçivəsiz eynəkdən sərrast və ağıllı gözlərlə Saşaya baxdı: - Mənə zəng vurmuşdular... Mərkəzi nəşriyyatda darıxdırıcıdır deyəsən? Həyata atılmaq istədiz? Təsadüfən, sizi böyük ədəbiyyat cəlb etmir ki?

- Yox hələ, elə bir şey yoxdur, - Saşa gənclik planlarını bölüşmək istəmədi, amma əks halda nə deyəcəyini belə bilmədi. Heç vaxt belə vəziyyətə düşməmişdi.

**-Bəlkə sizə diplomumu, nəşrlərimi göstərim? - deyə, əlini çantaya uzatdı.**

-Ehtiyac yoxdur, - deyə redaktor əlini yelləyərək hələ də gözlərini qırpmadan Saşaya baxırdı. - Sənin yaxşı cəhətlərinin çox olduğunu başa düşürəm. Roman yazmamağın yaxşıdır, çox vaxt aparır. Yox əgər həyatı görmək istəyirsənsə, bunu istədiyin qədər edərsən, bütün günün buna yetməz. Moskvada nə işlə məşğul idin?

**- Əsasən, mədəniyyət məsələləri ilə...**

- Mədəniyyət deyirsən demək, onu hamı sevir. Axı sən həyata varmaq istəyirdin? Bizim şəhərimiz sənaye şəhəridir. Kimya var, metallurgiya var... Deməli belə. Əgər işləmək istəyirsənsə istehsalat şöbəsinə müxbir gedəcəksən. Maaş 105 rubldur, ayda üç min işarə yazmalısan. Həftədə 3 dəfə buraxılışdır. Hər nömrədə yazın olmalıdır. Bir ay sınaq, sonra isə normal qaydada çap olunacaqsan. Katiblikdə və ya korrektor kimi işləmisən?

**- Xeyr, təəssüf ki, işləməmişəm. Məgər sizdə məsul katib yoxdur?**

- Niyə yoxdu? - deyə, redaktor təəccüblə soruşdu. Əlbəttə var. İşin gedişatından asılıdır, hər şey ola bilər. Yaxşı, sonra baxarıq vəziyyətə. Bu vacib deyil. Sən işə başla, qəzetin yığılmağını gözləmə, bir ay tez ötüb keçəcək. Sonra nə isə izah etməyəcəm, vaxt yoxdu. Üç ay dözsən - işləyəcəksən. Yox əgər dözməsən, gərək bağışlayasan, hərdəmxəyalları işdə saxlamırıq. Səni tapşıran adamlara xətirhörmətim var. Onlar yaxşı adam olsalar da, mənim yerimə qəzet təhvil verməyəcəklər. Qalmağa yerin var? Aliment ödüyürsən?

**- Hələ ki yox, - deyə Saşa gülümsədi. - Aliment ödəmirəm, qalmağa yerim yoxdu.**

- Mən elə belə də bilirdim. Mən Alüminium zavodun yataqxanası ilə danışaram. Onlardan balış və örtük götürərsən. Bizim divan bir ay sənin ixtiyarında olacaq. Sonra baxarıq... Oldu, deyəsən çox danışdıq, mənimsə söhbət etməyə vaxtım yoxdu. Sənin də vaxtın olmayacaq. Gedək oturduğun yeri göstərim. Sən hələlik qəzetlərlə tanış ol, bu sənə faydalıdır - sənin şöbə müdirin Tofik gəlsə, səni işlə tanış edəcək. O səhər tezdən kimya kombinatına gedib, indilərdən gələcək...

Redaktor qəfil onun balaca biləyinə sığmayan böyük saatına baxdı. - Vaxt itirmə! Mənə qalsa, qoy Tofiq səni Marten sexinə göndərsin, təzə gələnlər burdan başlayır. İndi orda əsaslı təmir gedir, birinci səhifə üçün reportaj hazırlayarsan. Bacararsan? Sən nə vaxtsa tərif yazmısan? Gözəllik! Özüm gedərdim, iş-güc imkan vermir. Nə vaxtsa nəyisə araşdırmısan?

**- Hansı araşdırma?**

- Necə yəni, hansı?! Yüksək rütbəlilərin araşdırması! Şəhər komitəsinə aid olanlar. Hə, axı Moskvada belə şey olmur. Orda yəqin hər sahənin öz adamı var, - deyə redaktor köksünü ötürdü. - Bizdə isə hamı o işlərə cəlb edilir, başqa heç cür alınmır. Sən fotoaparatla şəkil çəkə bilirsən? Az da olsa? Hə, bu da şərtdir. Əgər işə başlasan, bunu da öyrənməlisən. Yaxşı, bunu da çatdırarıq. Getdik!

Saşa başını əlləri arasına alıb üstü cızıq-cızıq və bir gözlü köhnə, boş dəftərxana masasının arxasında oturmuşdu. Masanın üstündə yalnız qara rəngli telefon aparatı vardı. "Belə-belə işlər", - deyə Saşa öz-özünə atasına oxşar tərzdə redaktorla baş tutan söhbət barədə hesabat verdi, - işgüzar görüşümüz alındı. Həm də mübaliğəsiz...

**(Davamı var)**

**"Təzadlar"**

**...Tibb üzrə fəlsəfə doktoru, tanınmış həkim, mərhum komandir Rövşən Cavadovun qızı Jalə Cavadova “Təzadlar”a sensasion müsahibə vermişdir. Müsahibədə inanılmaz qaranlıqlara işıq salınır və J.Cavadovanın nə qədər cəsarətli olduğu və intellektual dünyagörüşə malikliyi ortaya qoyulur. “...Mən 32 ildən sonra Laçında olanda, atamın döyüşdüyü torpaqları azad görəndə elə bildim yenidən doğulmuşam. Bu inanılmaz, ağlagəlməz bir hiss idi, sözlə ifadə etmək mümkünsüzdür. O dağlara baxanda düşünürdüm ki, cənab Prezident İlham Əliyev təkcə torpaqlarımızın işğaldan azad edilməsi ilə yeni bir tarix yazmadı, həm də bəzi hallarda əlimizi belə üzdüyümüz - itirdiyimiz yurdlarımızın işğalı ilə heç vaxt barışmayacağımıza köklənmiş, amma getdikcə itirilməkdə olan ümidlərimizi də bizə qaytardı...”,- deyən Jalə Cavadova arzularını da dilə gətirdi: “...Arzu edirəm ki, Qarabağda döyüş yolu keçmiş sabiq “OMON”çulara bəraət verilsin, o döyüşlərdə sonadək olmuş atamın adı azad edilmiş Laçında nişanələnsin... Atamın ən böyük arzu və məqsədi də Azərbaycanın bir qarış torpaqlarının belə işğalda qalmaması idi... Atam müsahibələrində də həmişə deyirdi ki, Azərbaycanı mövcud bəlalardan yalnız Heydər Əliyev xilas edə bilər... Amma...”.**

# “İlham Əliyev ata yurdumu işğaldan

## Jalə Cavadova: “Bütün bu əvəzolunmaz duyğulara görə cənab Prezident İlham Əliyevə minnətdaram”



Beləliklə, həmin müsahibəni təqdim edirik:

**-Jalə xanım, xoş gördük...**

-Təşəkkür edirəm...

**-Belə başa düşürəm ki, mətbuata müsahibəniz ilk dəfədir.**

-Bəli, uzun illərdir mətbuatdan kənar olmağa çalışmışam. Yəni, iş fəaliyyətim, ailə və s. qayğılarımız imkan verməyib ki, mediaya açıq olum. Amma müraciət edən jurnalistlər də çox olub. Hər birinə minnətdaram, amma onlara da izah etmişəm ki, müsahibələrə hələki hazır deyiləm, buna zaman lazımdır. Yadımdadır, siz neçə il əvvəl dediniz ki, ürəyiniz istəyəndə və psixoloji-mənəvi hazır olanda bildirin, ictimaiyyət üçün söhbət edək. Mən o vaxt sizə demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, ata yurdum, babamın yenidən gəzib-görmək istədiyi o torpaqların nisgilini özü ilə aparması səbəbindən hələki danışmağa, müsahibə verməyə hazır deyiləm. Jurnalistləri də başa düşürəm və suallarının əsas ağırlıq mərkəzində nələrin olacağını da bilirdim, amma o vaxt nə danışaydım...

**-Onda icazənizlə, indiyədək demədiyinizi, amma demək istədiyinizi dilə gətirək: necəsiz, ailədə qayğılar necədir? Yəqin ki, nəvələr başınızı qatır...**

-(Gülür). Bəli, nəvələr başımı qatır, elə onların sayəsində gələcəyimə ümidlənirəm.

**-Sirr deyilsə, neçə nəvəniz var?**

-Beş nəvəm var... Qudalarının ikisi də çox dəyərli insanlardır, hörmət-izzət sahibidirlər...

**-Ananız Zemfira xanım necədir? İmkan olduqca əlaqə saxlayıb əhvalını soruşuram...**

-Yaxşıdır, o da başını nəticələri ilə qatır...

**-Sosial media hesabınızdan gördüm ki, Laçına getmisiniz...**

-Bəli... Atamın da, nənəmin və babamın da həmişə ən böyük arzusu bu idi ki, Laçını bir də görsünlər, azad, görsünlər, işğaldan azad edilmiş görsünlər... Babam Bəxtiyar Cavadov son nəfəsində də, yadımdadır, xəstə olanda siz də gəlmişdiniz, sizin bir yazınız da var idi. O, son nəfəsində də Qarabağı, Laçını, Şuşanı dilə gətirmişdi... Ən böyük arzusu da o yerləri bir də görmək idi...

**-Bəli, Allah rəhmət eləsin, Bəxtiyar müəllim xəstə idi, nənəniz Tamara xanım məni çarpayısına yaxınlaşdırdı, dedi, Bəxtiyar, gör kim gəlib eyy, gözünü aç, Asif gəlib... Bəxtiyar müəllim astaca gözünü açdı, baxışları ilə salam verdi. Ovqatını dəyişmək üçün zarafatla dedim ki, Bəxtiyar müəllim, bu nə vaxtın yatmağıdı, günortadır, gəzmək lazımdır... Yavaşca pıçıldadı ki, gəzməli yer orda qalıb... Dedim, ürəyiniz nə istəyir indi? Əlini yavaşca nəmli gözlərinə tərəf aparıb sakitcə “Laçının Turşsuyundan bir stəkan su... Gücün çatar???”. Gülümsədi, dodağı qaçdı...**

-(Kövrəlir)Bəli, mən 32 ildən sonra atamın, babamın və nənəmin arzusunu yerinə yetirmək üçün Laçına getdim. Atamın döyüşdüyü torpaqları azad görəndə elə bildim yenidən doğulmuşam, atam sağdır. Bütün bu əvəzolunmaz duyğulara görə cənab Prezident İlham Əliyevə minnətdaram. İnanırsız, dağlara, ətrafa baxanda gözlərimə inanmırdım. Elə bilirdim yuxu görürəm. Bu inanılmaz, ağlagəlməz bir hiss idi, sözlə ifadə etmək mümkünsüzdür...

**-Bu məqamda nələri düşünüb nəticə çıxarırdınız, ürəyinizdən nələri keçirirdiniz?**

-Bilirsiz, o torpaqlarda nə qədər igid oğul və qızlarımızın ruhu dolaşır, onların döyüş, mübarizə yolu oralardan keçib. Bütün şəhidlərimizin ruhuna salavat çevirib dualar oxudum. Birdən qəribə bir hiss məni çulğaladı, özümdən asılı olmayaraq ağladım... Nənəm həmişə o yerləri yadına salanda ağlayırdı. Laçında bir təpəciyin üstündə oturub həm də onun əvəzinə ağladım. Dağlara baxanda düşünürdüm ki, cənab Prezident İlham Əliyevin səyi və ordumuzun, igid əsgərlərimizin sayəsində təkcə torpaqlarımız işğaldan azad edilməyib, bu Azərbaycan tarixində yeni bir şərəfli səhifədir! Cənab Prezident həm də bəzi hallarda əlimizi belə üzdüyümüz, açıq deyim, o torpaqların bir də özümüzə qaytarılacağına olan ölezimiş ümidlərimizi dirçəltdi, yenidən bizə qaytardı. Açıq deyək də, kim inanardı ki, Şuşa bir də bizim olacaq? Xarici ölkələrin bizə təzyiqlərini göz önünə gətirəndə, ATƏT-in Minsk Qrupu adlı siyasi alverçilərin otuz illik başqatmasını, ermənipərəstliyini düşünəndə ümidlərimiz öləziyirdi. Amma şükür ki, bunların əksi oldu, o torpaqlar işğaldan azad olundu... Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları qarşısında həmişə səcdəliyik...

> “Amma atam hər yerdə də deyirdi ki, Azərbaycanı düşmüş olduğu bu vəziyyətdən yalnız Heydər Əliyev kimi təcrübəli siyasi lider xilas edə bilər”

**-Hətta kim inanardı ki, biz ermənisiz Qarabağda yaşaya bilərik? Yaxud, o separatçıların hamısı indi məhkəmə qarşısında büzüşüb dayanacaq...**

-Bəli, bunlar tarixdir, özü də şərəfli tarixdir ki, Prezident İlham Əliyev bunu Azərbaycana yaşatdı.

**-Jalə xanım, bu müsahibəni oxuyanlar məni qınayar, əgər sizə indi verəcəyim sualı və ona sizin cavabınızı görməsələr: bu da bir tarixi təsadüfdür ki, müsahibəmiz 13-17 mart 1995-ci il hadisələrinin 30 illiyi günlərinə düşüb. “OMON”çular Qarabağ müharibəsindən keçib gəlmiş döyüşçülər idi. İndi onların adları və dünyasını dəyişənlərin ruhları Qarabağdan keçir. Atanız Rövşən Cavadovun Qarabağ düşüncələrini necə xatırlayırsınız?**

-Atamla bu məzmunlu söhbətimiz çox az olardı, çünki Ermənistanın işğalçılığından sonra ölkə rəhbərliyi səviyyəsində bütün diqqət cəbhəyə yönəlmişdi. Baş qaşımağa belə vaxtı olmurdu, daim cəbhədəki vəziyyətlə bağlı orda-burda olardı. Bilirsiz ki, o vaxt cənab prezident Heydər Əliyevin xarici siyasətinin mahiyyətini də torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərin öz yurduna qaytarılması təşkil edirdi. Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın və Qarabağdan çıxarılmış köçkün insanların sayı bir milyona dirənmişdi. Onların yerləşdirilməsi, sosial-məişət problemlərinin həlli bir nömrəli vəzifə idi. Prezidentin daxili siyasəti də buna köklənmişdi. Atam da, yadınızdadırsa, daxili işlər nazirinin müavini idi, həmçinin “OMON”un rəhbəri idi, sonra nazir vəzifəsini icra etdi. Yəni, vaxtı çox az olurdu, evə gələndə isə ilk növbədə cəbhədəki vəziyyəti soruşardıq. 1994-cü ilin Horadiz əməliyyatında da atam birbaşa iştirak etmişdi. Ondan əvvəl isə, videokadrlar var, Ağdərənin düşməndən azad olunması əməliyyatına birbaşa rəhbərlik edərək, hətta şəhərin giriş “Açar”ını döyüşçülərə təqdim etmişdi. O həmişə deyirdi ki, kaş bu işğala son qoyula, hamı qayıda öz yurduna, çıxıb gedib oturacam Laçında, fermer təsərrüfatı yaradıb orda yaşayacağam. Amma ermənilərin daim yeni əraziləri işğal etmə cəhdləri bu arzunu heçə endirirdi.

**-Elə məsələlər var ki, zahirən görünüb hiss olunmur, amma ailədə hər bir problem müzakirə edilə bilir. Atanızın hakimiyyətlə münasibəti necə idi, nələri hiss edirdiniz?**

-Mən sizə bir faktı xatırladım: Rəhmətlik Heydər Əliyev Naxçıvandan Bakıya gələndə, bilirsiz ki, mühafizəsini atama etibar etmişdi. Babam da danışırdı ki, ən yüksək səviyyədə ona da deyilmişdi, danışıqlar olmuşdu, Heydər Əliyevə qarşı Bakıda təxribatlar olacağı barədə söhbətlər eşidilirdi, amma belə bir vaxtda babam Bəxtiyar Cavadov atamla danışdı, bildirdi ki, cənab Heydər Əliyev mühafizəsini yalnız ona etibar edir. O dövrün videokadrlarında da var, cənab Heydər Əliyev aeroportda qarşılanır, atamın rəhbərlik etdiyi “OMON”çu mühafizəçilərin əhatəsində Bakıya gəlir. Yadımdadır ki, o dövrün siyasiləri buna görə atama qarşı soyuq münasibət bəsləyirdilər. Amma atam hər yerdə də deyirdi ki, Azərbaycanı düşmüş olduğu bu vəziyyətdən yalnız Heydər Əliyev kimi təcrübəli siyasi lider xilas edə bilər. Səhv etmirəmsə, elə sizin “Təzadlar” qəzetinə müsahibəsində də belə demişdi: “...Nə qədər ki, Heydər Əliyev var, Azərbaycanın da prezidenti o olmalıdır...”.

**-Bəli, həmin müsahibənin audioyazısı qəzetin arxivində durur... Jalə xanım, qayıdaq bu günümüzə: təbii ki, cəmiyyətdə hələ də belə bir fikir hakimdir ki, ola bilsin 13-17 mart hadisələrinə görə hakimiyyətin ailənizə qarşı münasibəti arzulanan formada deyil...**

-Başa düşdüm. Bir məsələni qeyd edim: atamın o vaxtlar Prezident Heydər Əliyevə qarşı münasibətini yuxarıda dedim... Mən 1990-95-ci illərdə atamla bağlı baş vermiş hadisələrin daha yaxından izləyicisi olmasam da, amma anamın söylədikləri və mətbuatdan oxuduqlarıma istinadla deyə bilərəm ki, atam canı-qanı ilə Azərbaycan dövlətçiliyinə bağlı idi, siyasətdən tamamilə uzaq dururdu. Atam müharibədən keçmişdi, döyüşmüşdü. Onun Ağdərə, Horadiz, Laçın və digər döyüş bölgələrindəki əməliyyatlarda iştirakını hamı bilir, videokadrlar da yetərincə arxivlərdə var. Atamın idmana da böyük marağı var idi. Özü 10-cu Dan Qara Kəmər ustası idi. Sovet dövründə qadağan olunmasına baxmayaraq, atam 90-cı illərdə Azərbaycanda ilk dəfə karate məktəbini yaratmışdı. Həmin məktəbin yetirmələri indi də var və hamı onları tanıyır, hər biri dövlətçiliyə bağlı insanlardır.

**(Davamı 8-ci səhifədə)**

(Əvvəli 8-ci səhifəd)

Hətta xatırlayıram ki, o vaxtı Laçından, sonra isə Sumqayıtdan atamın deputatlığa namizədliyi verilmişdi. Atam həm də “Xudu Məmmədov” Xeyriyyə Cəmiyyəti təsis etmişdi. Məsələn, Çikaqoda simfonik orkestrimizin konserti olmuşdu, atam həmin qrupun maliyyəsini cəmiyyətin hesabına etmişdi. Eləcə də muğam ifaçılarının xarici ölkələrə səfərlərinə dəstək verirdi. Atam gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsinə də diqqət ayırırdı. Məsələn, o vaxt Demokratik Gənclər Birliyi adlı cəmiyyət yaradılmışdı, qurultayı da olmuşdu. İstedadlı gənclər həmişə diqqətdə olurdular.

Cəmiyyət əsasən də hərbi sursatların ruslardan alınmasında iştirak edirdi, eləcə də əsir və girovluqda olanların azad edilməsi, əsirlikdən gələnlərin müalicəsi və s. işlərə də dəstək verirdi. Məsələn, dəqiq xatırlayıram, o, Xocalıda girov düşmüş qadınların azad edilməsini təşkil etmişdi. Xocalıdan olan bir qadının bu barədə müsahibəsinə də baxmışam. Artıq indi danışmaq olar, mətin görkəmi, müəyyən ərazilərdə, bulaq başında, çay kənarında və s. gəzintilərindəki təvazökar durumu mənə atamı xatırladır. Atam da döyüş bölgəsində, yaxud döyüşçülərlə, Bakıdakı görüşlərində həmişə o təvazökarlığı göstərirdi.

Bir faktı da deyim, 44 günlük Vətən müharibəsində iştirak edən döyüşçülərin Şuşa və Laçın, Qubadlı... əməliyyatları



# azad etmiş prezidentdir və...”

***Jalə Cavadova:* “Cənab Prezidentin sadəliyi, qürurlu və mətin görkəmi, müəyyən ərazilərdə, bulaq başında, çay kənarında və s. gəzintilərindəki təvazökar durumu mənə atamı xatırladır”**

atam dövlət səviyyəsində Əfqanıstana göndərilmişdi, ordan təcrübəli döyüşçüləri gətirmişdi Azərbaycana. Sizin “Təzadlar” qəzetində oxumuşam, o vaxt ermənilər əl-ayağa düşərək bu barədə “Vaşinqton Post” qəzetində məqalə də dərc edilmişdi. Amma bizimkilər bunu təkzib etməli olmuşdular... Deyəsən elə sizin qəzetdə verilmişdi.

**-Bəli, bizdə bu barədə sensasion yazı dərc edildi. “Vaşinqton Post”un həmin yazısı arxivimizdə durur... Sonralar atandan soruşmuşdum ki, bu nə məsələdir bəs? Mənə Prezident Heydər Əliyevin tapşırığı ilə Əfqanıstanda olduğunu təsdiqləyən fotoşəkilinin surətini də vermişdi, o da arxivimizdə durur...**

-Yəqin bilirsiz, atamın rəhbərliyi ilə Bakıda dəfələrdə beynəlxalq səviyyəli idman yarışları da keçirilirdi. Həmin mərasimlərdə bəlkə də cənab prezidentdən savayı bütün siyasi elita iştirak edirdi...

**-Yadımdadır, daxili işlər naziri Ramil Usubov, Ramiz Mehdiyev, baş nazirin 1-ci müavini Abbas Abbasov, spiker Murtuz Ələsgərov və sair nüfuzlu hökumət adamları iştirak edirdi... Prezident İlham Əliyevin də o vaxtlar belə humanitar tədbirlərin birində iştirakı yadımdadır...**

-Bilirsiz, atamın yuxarı hakimiyyət üzvləri arasında belə nüfuz qazanması bəzilərinə qətiyyən sərf etmirdi. Siz onları tanıyırsınız, yəqinki mənim tərəfimdən adlarını çəkməyim bu söhbətimizin siyasi məzmunlu olduğuna dəlalət etmiş olar. Bəli, atamın prezident İlham Əliyevə böyük hörməti və sayğısı var idi. Ailəmizdə dəfələrlə belə söhbətin şahidi olmuşam. Hətta bir dəfə nənəm dedi ki, bir mötəbər ailə məclisi olacaq, İlham Əliyev də ora gələcək... Mən bəlkə də səhv edərəm, amma indiyədək cənab Prezident İlham Əliyevin atamla bağlı hər hansı sərt çıxışını və s. görməmişəm. İcazə versəniz, ürəyimdən bir fikir keçdi, onu da deyim: mən İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə Mehriban xanımla birgə səfərlərini diqqətlə izləyirəm. Cənab Prezidentin sadəliyi, qürurlu və zamanı çəkdikləri, sonradan yayımladıqları videokadrlar var ki, atamın adını çəkirlər... Biləsiniz, 44 günlük döyüşlərdə 50-yə yaxın keçmiş “OMON”çu da bələdçi kimi iştirak etmişdir. Çünki onlar o döyüş bölgələrini yaxşı tanıyırdılar...

Onlar bununla da Vətənə, cənab Prezidentə, dövlətə nə qədər sadiq olduqlarını sübut etmişlər... Atam da heç bir vəzifə iddiasında olmamışdı, o prokuror oğlu idi, hər şeyi görmüşdü. Onun kitabxanasında Üzeyir bəyin (Atatürklə bağlı olan ktablar da daxil), Xudu Məmmədovun, Məmməd Arazın, Cəlil Məmmədquluzadənin, Bəxtiyar Vahabzadənin, Şahmar Əkbərzadənin... kitabları var idi. O həmişə deyirdi ki, bir partiyamız var, o da Azərbaycan partiyasıdır, Vətən partiyasıdır, hamı bu ideya ətrafında birləşməlidir. O, Türkiyə ilə dostluq və qardaşlığa xüsusi önəm verirdi.

**-Siz tanınmış həkimsiniz, əvvəl Respublika Perinatal Mərkəzdə çalışırdınız... Xəstələrlə, həkim personalı ilə ünsiyyətlərinizdə sizə qarşı münasibətdə nə-sə bir fərqlilik görürdünüzmü?**

**Bütün bunları bizə nəsib edən Allahımıza, bunu bizə yaşadan prezidentimizə minnətdar olmalıyıq...**

-Bir az çətin sualdır. Amma deyim: mənə qarşı heç bir yerdə məlum hadisələrlə bağlı hər hansı əks münasibətin şahidi olmamışam. Əksinə, kollektivdə xüsusi hörmət görmüşəm. Hətta bəzən daxilən narahat olurdum ki, kimsə biləndə ki, mən Rövşən Cavadovun qızıyam, daha fərqli, yüksək hörmət və münasibət bəsləyirdilər, onda özümü narahat hiss edirdim. Xəstələrim də eləcə...

**-Bəs rəsmiyyətdən duyduğunuz münasibətlərdə necə?**

-Heç vaxt... Bilirsiz ki, Respublika Perinatal Mərkəzdə yanğın oldu, mərkəz fəaliyyətini dayandırdı. Orada çalışanda da yüksək münasibət görmüşəm. Özünüz düşünün, yuxarıdan rəhbərliyə bir söz deyilsəydi, bu mənə münasibəti tamamilə dəyişdirərdi. Deməli, əksinə... Bəlkə də mənə digər həkimlərdən daha üstün bir münasibəti bəsləyiblər... Hazırda isə M.Ə.Əfəndiyev adına 2 saylı Şəhər Klinik Xəstəxanasında çalışıram. Bu xəstəxananın rəhbərliyindən yerdən-göyə qədər razıyam, ən yüksək səviyyədə olan münasibtin və qayğının, diqqətin əhatəsindəyəm. Təfsilatınadək varmaq istəmirəm, Heydər Əliyev Fondundan da xüsusi diqqət görmüşəm. Şübhəsiz ki, bu diqqət şəxsən 1-ci vitse-Prezident Mehriban xanım Əliyevadan qaynaqlanan bir məsələdir, belə hesab edirəm...

**-Sosial media platformanızda Mehriban xanımın ad gününə həsr etdiyiniz bir maraqlı təbrikə də rast gəlmişdim...**

-Bəli, həmin təbrik mesajımda yazmışdım: “Fəxrimiz, çox dəyərli, əziz Mehriban xanım Əliyeva! Xoşbəxtəm ki, Allah bizləri Sizin kimi nümunəvi Lider xanım və dövlət adamıyla - Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti ilə eyni dövrdə yaşamağı nəsib edib. Bir qadının nə qədər sevgi dolu, nə qədər səmimi, nə qədər humanist, mərhəmətli, nə qədər güclü olması mümkündürsə, biz Sizdə bütün bu dəyərlərin cəmini gördük. Müxtəlif təbəqədən olan insanlara, uşaqlara, yaşlılara, kimsəsizlərə, şəhid ailələrinə həssas münasibətiniz, diqqətiniz, qayğı və dəstəyinizlə, milli-mənəvi dəyərlərimizə sahib çıxmaqla həm xalqın rəğbətini qazanmısınız, həm də parlaq fəaliyyətinizlə cəmiyyətə, dünya ictimaiyyətinə örnəksiniz. Bu gün Azərbaycan qadınının dünyaya təqdimatı məhz Sizin örnək simanızdır. Bir qadın, ana, vətəndaş olaraq Sizinlə qürur duyur və bu sevgini, hörməti qəlbimin səsi ilə Sizinlə paylaşıram.

Çox dəyərlimiz, sevimlimiz bizim Mehriban xanım! Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirəm! Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, millətimiz, dünyamız, ölkəmiz naminə həyata keçirdiyiniz layihələrdə, yorulmaz fəaliyyətinizdə bitib-tükənməyən nailiyyətlər arzulayıram.

Cavadova Jalə Rövşən qızı, həkim”.

**-Jalə xanım, övladlarınızın barəsində soruşmaq istəyərdim...**

-İki qızım, 5 nəvəm var... Qızımın ikisi də dövlət işində çalışır. Balaca qızım Nərmin qrafik dizaynerdir, xaricdə təhsil almışdır, bir neçə xarici dili bilir. O, Qarabağdakı “Ağıllı kənd” layihələrinin qrafik dizaynlarını şəxsən mənim qızım verir. Kürəkənim Prezident Administrasiyasında çalışır. Mənim, eləcə də qardaşım Laçının övladı Vətənə layiqli xidmət etməyə həmişə hazırdırlar, buna layiqdirlər.

**-Sizə siyasi mühitimizə dair fərqli sual vermədim, səbəbini bilirsiniz... Bəlkə özünüzün ürəyinizdən keçən nəsə fikirləriniz var, buyurun, deyə bilərsiniz...**

-Həyat bir imtahandır... Bizim ailədə, Azərbaycanın hər bir düşünən insanları da bu imtahandan çıxmışıq, hələ qarşıda fərqli imtahanlarımız da ola bilər. Əs odur ki, Azərbaycan itirilmiş torpaqlarının sahibidir, qalib ölkədir, başımız hər yerdə ucadır. Hər bir kəsin başına gələnlər də hesab edin ki, onun alın yazısıdır. Amma xoşbəxtik ki, biz Azərbaycanın itirilmiş torpaqlarının qaytarılması tarixini yaşayanlarıq. Dünya uzun müddət erməniləri qəhrəman kimi, bizi isə əzilən, ərazi itirən kimi tanıyırdı. **Amma şükürlər olsun, cənab Prezident İlham Əliyevin sayəsində bu mif darmadağın edildi. Hətta nəinki işğal edilmiş o torpaqları özümüzə qaytardıq, həm də o torpaqların işğal edilməsi siyasətinə rəhbərlik etmişlər indi Bakıda məhkəmə qarşısındadır.** Üstəlik, ermənilərin etnik təmizləmə siyasətinin yüz illər qurbanı olmuş Azərbaycan Qarabağda separatçılığa son qoymuşdur. Bu tarix şərəfli bir missiyanın bəhrəsidir! Bütün bunları bizə nəsib edən Allahımıza, bunu bizə yaşadan prezidentimizə minnətdar olmalıyıq... Sonda isə anamın və ailəmizin adından cənab Prezident İlham Əliyevdən, çox hörmətli Mehriban xanım Əliyevadan bir xahişimiz var: atam həqiqətən də Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən bir əsgər idi... Çox istərdik ki, doğulduğu Laçında, yaxud başqa bir ərazidə atamın adına bir nişanə olsun ki, həm cəmiyyətimiz onun necə döyüşçü olduğunu bilsin, həm də bizim ailəyə, nəslimizə bir təsəlli olsun. Bir də xahişimiz budur ki, sabiq “OMON”-çular var, onların demək olar hamısı müharibədən keçiblər, bədənlərində qəlpə gəzdirirlər, müalicəyə ehtiyacları var. Onların hamısı Prezidentin, Ali Baş Komandanın əsgəri olublar. Onlara bəraət verilsin, keçmiş döyüşçü kimi dövlət qayğısı ilə əhatə olunsunlar. Mən inanıram ki, bu müqəddəs Ramazan ayında ürəyimizdən keçən bu arzumuz tezliklə reallaşacaq...

**-Müsahibə üçün təşəkkürümü bildirirəm.**

-Sizə ailəmiz adından dərin minnətdarlığımızı bildiririk ki, heç vaxt bizi unutmamısınız, çünki atamın necə bir vətənpərvər olduğunu görmüşdünüz...

**Asif MƏRZİLİ**

# Xuraman Muradovanın “Vətən eşqi - Turan sevdası” kitabı Özbəkistanda təqdim edildi



**Azərbaycan və Türkiyə Yazıçılar birliklərinin üzvü, Özbəkistan Yazıçılar İttifaqının fəxri üzvü, Əlişir Nəvai adına Daşkənd Dövlət Universitetinin və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru Xuraman Muradovanın “Vətən eşqi - Turan sevgisi” kitabının Özbəkistanın Daşkənd Dövlət Milli Kitabxanasında və Nizami Gəncəvi adına Dövlət Pedaqoji Universitetində təqdimat mərasimləri keçirilib.**

Tezadlar.az AzərTAC-a istinadla bildirir ki, tədbirdə çıxış edən Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin rəhbəri Akif Maarifli, Özbəkistan Yazıçılar İttifaqının sədr müavini Qeyrət Məcid, Özbəkistan Milli Məclisinin deputatı Jamila Şermuxammedova, Nizami adına Dövlət Pedaqoji Universitetinin prorektoru Vahabcan Rəcəbov, Əlişir Nəvai adına Özbəkistan Dövlət Universitetinin professoru Nurbay Cabbarov, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, Özbəkistan Milli Kitabxanasının direktoru Ümidə Teşabayeva, kitabın tərcüməçisi Özbəkistanın tanınmış şairi Kərim Bəhriyev, “Özbəkistan tarixi” dövlət televizisiyasının rəhbəri Şuhrat Hayitov, Özbəkistan Dövlət Universitetinin Füzuli mərkəzinin direktoru, professor Gülbahar xanım Aşurova, Özbəkistanın tanınmış şairəsi Fəraqət Xudaquliyeva müəllifə yaradıcılıq uğurları arzulayıblar.

Vurğulanıb ki, “Vətən eşqi - Turan sevgisi” kitabı Xuraman Muradovanın Özbəkistanda özbəkcə nəşr olunan ikinci kitabıdır. Müəllifin Daşkənddə ilk dəfə nəşr olunan “Özbəkistanım həm vətənimdir” və indi təqdimatı keçirilən “Vətən eşqi - Turan sevgisi” kitabları, bütövlükdə ədəbi yaradıcılığı qardaş ölkədə geniş oxucu auditoriyası tərəfindən rəğbət və məhəbbətlə qarşılanır.

Qeyd edək ki, tədbir Özbəkistanın mediası tərəfindən geniş işıqlandırılıb.

Dəyərli yazıçımıza “Təzadlar”ın oxucuları adından daha böyük yaradıcılıq uğurları arzulayırıq.

**Y.Məmmədli**

# Paşinyan Makronla sülh müqaviləsindən danışdı

**Ermənistanın Baş naziri Nikol Paşinyan Fransa Prezidenti Emmanuel Makronla telefon danışığı aparıb.**

Bu haqda “Sputnik Armenia” məlumat yayıb.

Qeyd edilib ki, Paşinyan “Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin yaradılması haqqında Saziş” layihəsinin mətninin təsdiq edilməsi və saziş layihəsinin mətninin təsdiqi ilə bağlı danışıqların başa çatdırılması barədə Fransa Prezidentinə məlumat verib.

Tərəflər Ermənistan-Fransa, Ermənistan-Avropa İttifaqı münasibətlərini, eləcə də Cənubi Qafqaz regionu ilə bağlı digər məsələləri də müzakirə ediblər.



# Poeziyanın təsdiqlədiyi şəxsiyyət

## *Giya Paçxataşvilinin “Doğum şəhadətnaməsi” adlı şeirlər kitabı çap olunub*

**Gül istərdi ki, bülbül onun solması fəlsəfəsindən uzaqlaşıb fidanı sevsin. Amma heç də hər gülə, yəqin ki, məsələn, küsəyən mimozaya aid etmək olmaz bu sözü.**

Rəhmətlik Lamara da istərdi ki, tərk edib getdiyi Givisini etibarlı birinə əmanət etsin. Bir müddət yalnız Lamara ilə bağlı xatirələri ilə yaşadı Givi. Özü demişkən, bir gəzərgi baş daşı kimi yaşadı. Ta ki, Xatirəyə rast gələnə kimi.

Dostların məsləhəti ilə evlənmişlər. Bəlkə də ilk əvvəl ikisinə də elə gəlirdi ki, onların izdivacı gerçək sevgiyə çevrilməyəcək, evlilikləri də sadəcə taleyin hökmü ilə dul qalmış iki bədbəxtin bir damın altında yaşamasından ibarət olacaq. Amma ziyalılıqları ilə dərk etdilər ki, sevginin başlanğıcı da, dayağı da qarşılıqlı hörmətdir. O hörməti qorudular, artırdılar, sözün həqiqi mənasında məhəbbətə çevirdilər və qəlblərindəki deşiyi yamadılar.

**Sənin getdiyin beş ildi -**<br>
**Ürəyin başı deşildi...**<br>
**İndi Xatirədir**<br>
**Mələyi ev-eşiyin,**<br>
**O, saf sevgi ilə yamayır**<br>
**Ürəyimdəki deşiyi...**

Yeni ailə qurandan üç il sonra bu şeiri yazan Giya və Xatirə indi mərhum həyat yoldaşlarının məzarlarını ziyarətə qoşa gedirlər. Əminəm, rəhmətliklərin hər ikisinin ruhu şad olmalıdır.

Bəli, Giyanın evinin divarından Lamaranın şəklini götürmədi, əksinə, birini də özü çəkdi rəssamlığı bacaran Xatirə xanım. Beləliklə, Xatirə xanımın sayəsində Giya gəzərgi baş daşından yeriyən şeirə çevrildi. Qonşusu və yeni işıq üz görmüş kitabının redaktoru, şair - tərcüməçi Nurafiz Hüseynov Giyaya həsr etdiyi, kitabda “Son söz” əvəzi təqdim olunan şeirində yazır:

**Bizim məhləmizdə bir nağıl kişi**<br>
**Yaşayır, - yeriyən şeir kimidi.**<br>
**Ürəyi ağzında ocaq çatıbdı,**<br>
**Salam verməyi də xeyir kimidi.**

**Bizim məhləmizdə bir nağıl kişi,**<br>
**Bir gözlə mat qoyar təkgözlü Divi.**<br>
**Givininbir gözü - Xatirə xanım,**<br>
**Bizim məhləmizin gözüdü Givi.**

Giya Paçxataşvilinin (Givi) son illərdə qələmə aldığı şeirlərdən ibarət yeni kitabı “Doğum şəhadətnaməsi” adlanır. Kitab Regional Hüquqi və İqtisadi Maarifləndirmə” İctimai Birliyinin dəstəyi ilə “CN Poliqraf” MMC-də çap olunub.

Azərbaycanın gürcü oğlu G.Paçxataşvilinin şeirlərinin ön cərgəsində Vətənə və onun vətənpərvər övladlarına həsr olunanlar gedir: “Azərbaycan bayrağı”, “Vətən”, “Mübariz İbrahimova”, “28 may”, “44 günlük müharibə”, “Şəhid bulaqları”, “20 yanvar”, “Bakı - Qroznı uçağı”, “Qara qutu” və s.

Amma nə özünə yar-yoldaş tapmağı, nə də Vətən müharoibəsində qələbə Givinin qəbindəki bütün xalları əritmədi. Çünki o xallar bir deyil, iki deyil...

İki il əvvəl qardaş Türkiyədə baş verən, on minlərlə insanın həyatına son qoyan dəhşətli zəlzələdən təsirlənən şair bu mövzuda qələmə aldığı şeirləri kitabda ayrıca fəsil kimi “Türkiyə dəftəri” sərlövhəsi altında təqdim edib:

**“Quraraq xoş gələcək,**<br>
**Türkiyə dirçələcək,**<br>
**Körpələr böyüyəcək,**<br>
**Qovaraq nəhs illəri**<br>
**“Zəlzələ Şəhidləri”.**

**Givi şərik kədərə,**<br>
**Şeir yazmaz hədərə.**<br>
**Dua edib min kərə**<br>
**Xatırlayır Sizləri,**<br>
**“Zəlzələ Şəhidləri”.**

Koronavirus pandemiyası Givinin də qohumları və dostları sırasından xeyli can aldı. Pandemiya şəhidlərinin müqəddəs ruhlarına həsr etdiyi şeirdə yazır:

**Həyat -**<br>
**Ağzında oksigen balonu olan**<br>
**xəstənin yaşamaq arzusu.**<br>
**Və...**<br>
**tibb bacısının verdiyi**<br>
**bir udum ılığ su...**

Öz dini etiqadı xristianlıq olsa da, müsəlman təəssübkeşliyi var şairin. Ərəb ölkələrindən Avropaya miqrasiya edərkən dənizdə boğulan insanlara görə günahı pullu ərəb şeyxlərində görür:

**...Məkkədə qoyunlar kəsilir,**<br>
**Gəmilərdə miqrant tünlüyündən**<br>
**Dənizin yaşamaq eşqi əzilir.**<br>
**Şeytana tuşlanan daşlar**<br>
**Təkrar-təkrar zəvvarlara satılır...**<br>
**Avropaya üz tutan müsəlmanlar**<br>
**Allahın ümidinə atılır.**

G.Paçxataşvili şeirlərində cəmiyyətin eybəcərliklərini, məsələn, sosial həyatın mənfi təzahürü olan aborta əl atanları qınayır, narkomaniyanın, alkoqolizmin fəsadlarını xatırladır, artıq pul qazanmaq üçün Şimala üz tutandan sonra vətəni, ailəni unudan kişiləri lənətləyir. Şair eyni zamanda cavanlara sağlam həyat tərzini, oxumağı, idmanla məşğul olmağı tövsiyə edir, cüdo üzrə olimpiya çempionu Hidayət Heydərovun nailiyyətini tərənnüm edir.

Kitabda əlahiddə bölüm təşkil edən “Təbiət şeirləri” oxucuya günəşli səmanın, təmiz havanın, şairin öz sözləri ilə desək, “sərinlik bəxş edən mehin, otlara güc verən şehin”, “soyunaraq payızı qarğışlayan, barını səxavətlə xalqa bağışlayan” ağacların, zəng saatı ilə müqayisə etdiyi xoruz banının ecazkar təsirini ötürür. “Şəki, sabahın xeyir!”, “Bakıya yağan yağış”, “Payız”, “Layısqıda payız gecəsi”, “Şəkidə Novruz yağışı” adlı şeirlər ümumiyyətlə, poeziyada təbiət mövzusunda yazılmış gözəl nümunələrdəndir.

Müəllif “Doğum şəhadətnaməsi” kitabında uşaq ədəbiyyatına da yaxşı töhfələr verib. Onun uşaq şeirlərinin ümumiləşdirdiyi qəhrəmanı - Xatirənin qardaşı oğlu Vüsaldır. “Vüsalın var çantası”, “Yeni ilin Vüsalı”, “Vüsalın sualları”, “Qısqanc Vüsal”, “Vüsal günəşə baxır” və başqa bu kimi şeirlər oxucunu məsum uşaq dünyasına səyahətə aparır.

Olduqca dostcanlı adamdır Givi. Kitabında ailəvi dostluq etdiyi mərhumə millət vəkili Qənirə xanım Paşayevaya, şair, alim Qiymət Məhərrəmliyə, xalq artisti, bədii qiraətçi Eldost Bayrama, bəstəkar İqbal Ağayevə, rəssamlar Rais Rəsulzadəyə, Sehran Allahverdiyə, şairlər Meyxoş Abdullaya, Vaqif Aslana, Famil Hacısoya, jurnalistlər İlham Abbasova, Əflastun Amaşova, Şəmsiyyə Kərimovaya, İlhamə Qəsəbovaya, göz həkimi Eloğlu Məmmədova, Eldəniz və Arzu Əliyevlərə ithaf etdiyi şeirlərlə adları çəkilən ziyalıların timsalında İnsanlığın gözəl xüsusiyyətlərinin altını cızır, örnək göstərir. Sadiq dost kimi, analarını itirən Ləman Ələşrəfqızına, İqbal Ağayevə, Pünhan Şükürə təsəlli verir, səbr diləyir.

Nə olur-olsun, kitabda diqqətdən heç cür kənarda qalmayacaq əsas cəhət yenə də Givinin həyat yoldaşı Xatirə xanıma həsr etdiyi şeirlərin sayca xüsusi çəki təşkil etməsidir: “Sən gələli”, “O - Sənsən”, “Yarıma”, “Xatirənin ürəyi”, “Şirinim”, “Şəkilim” və s.

Məncə, belə də olmalıdır. Təsadüfdən bu sətirləri qələmə aldığım bu günkü təqvim - 2 mart 2025-ci il Xatirə Mikayıl qızı Paçxataşvilinin ad günüdür. Elə ona görə də bu yazını Giyanın ömür-gün yoldaşına hədiyyə etdiyi “Mübarək” şeiri ilə yekunlaşdırır, bütün ailə quran cütlüklərə birinci bəxtdən bu cür sevgi arzulayıram:




**Günü qamaşdıran, aya naz satan,**<br>
**Təlx olmuş ovqatın başını qatan,**<br>
**Dərdi bürmələyib heçliyə atan**<br>
**Xatışım, doğulan günün mübarək!**

**Tənhalıq əlindən məni qoparan,**<br>
**Sevgi dünyasına şəstlə aparan...**<br>
**Qışda bahar olan, baharda boran**<br>
**Xatışım, doğulan günün mübarək!**

**Bakıda bərq vuran Şəki ulduzu,**<br>
**Evimə yağıştək ələnən ruzu,**<br>
**Ay böyük ürəkli balaca quzum -**<br>
**Xatışım, doğulan günün mübarək!**

**Mərdanə sevgili, sadiq həbibim,**<br>
**Aşpazım, xəttatım, könül təbibim,**<br>
**Şeir müəllifi, ömür sahibim,**<br>
**Xatışım, doğulan günün mübarək!**

Xatirənin ad günü, sənin də “Doğum şəhadətnamən” mübarək, Givi! O gün olsun, “Şəxsiyyət vəsiqəsi”ni də yazasan! Hərçənd, sənin kimi şəxsiyyətə, səninki kimi cizgiləri daşıyan adama şəxsiyyətini təsdiq edən heç bir sənəd lazım deyil.

**Pünhan Şükür**

# Xudu Məmmədovu daha yaxından tanıyaq: Türkiyədən “Təzadlar”a yazırlar...

*Dahi yazarımız Cengiz Aytmatov “Gün Uzar Yüzyıl Olur” romanını bu mantık üzerine kurgulamıştır. İddiayla söyleyebiliriz ki, Cengiz Aytmatov”un bu mantığını da pekiştiren Hudu Memmedov olmuştur*

**...Elmdə Xudu Məmmədovun hər gün doğum günüdür! “Türkiyədən “Təzadlar”a göndərilən bu yazlnı orijinaldan olduğu kimi təqdim edirik:**

...Hudu Memmedov”un bir bayatısı üzerine “Dünyadan umma şəkər, Ömrümüzə turp əkər. Dərdimiz yetim qalsa, Bizdən sonra kim çəkər?!”.

Değerli ve duyarlı dostum, Uşak Üniversitesi Öğretim Üyesi Doç. Dr. Naib Elekberov rahmetli Hudu Memmedov”un bu dörtlüğünü facebook sayfasında paylaşmış, değerli Hocamız Prof. Dr. Kamil Veli Nerimanoğlu”dan ve benden onu yorumlamamızı istemişti. ...

Türkolojinin Aksakallarından olan Prof. Dr. Ahmet Bican Ercilasun Hocam ile birlikte rahmetli Kamil Müellim hakkında kaleme aldığımız yazının adı şöyleydi: “Söz Adamı + Söz Alimi = Kamil Veli Nerimanoğlu” (Prof. Dr. Kamil Veli Nerimanoğlu”nun Türk Halk Bilimi – Türk Dili ve Poetikası – Türk Fikir Hayatı – Makale ve Denemeler kitabının önsözü). Akçağ Yay. 1022, Türk Halk Edebiyatı: 58, s. 9-13, Ankara, 2011. Aslına bakılırsa Naib dostumuz bu dörtlüğün yorumunu “söz adamı + söz alimi” Hocamızdan – İstanbul Aydın Üniversitesi öğretim üyesi Prof. Dr. Kamil Veli Nerimanoğlu”dan istediği için bize söz düşmezdi... Zira rahmetli Kamil Hocam hem onlarca kitabın, yüzlerce makalenin müellifi, hem bu alanın en yetkin (otorite) isimlerinden biri, hem de rahmetli Hudu Müellimi şahsen tanıyan (Hudu Müellimin de şahsen tanıyıp sevdiği) bir aydındı. Biz rahmetli Hudu Memmedov”u hayatta görmesek de onu rahmetli Ebülfez Elçibey”den, rahmetli Cengiz Aytmatov”dan, rahmetli Bahtiyar Vahabzade”den, rahmetli Cevat Heyet”ten, rahmetli Nureddin Rzayev”den, rahmetli Şahmar Ekberzade”den, rahmetli Kamil Müellimden dinleyerek sevdik, seviyoruz ve seveceğiz... Yıllar önce Fexri Xiyaban”da Hudu Müellimin mezarını da ziyaret ettik ...

***

Mekanı cennet, ruhu şad olsun... “Hudu – Sırr-ı Hüda” benzetmesini kimin yaptığını unutsam da Prof. Dr. Hudu Memmedov”un (14.12.1927 – 15.10.1988) Naxışların Yaddaşı kitabını büyük ilgiyle okuduğumu iyi hatırlıyorum. Her sözü hikmet (örneğin, çalışkan öğrencilerine şöyle demiş: “Derslerini kötü okuyan arkadaşlarınıza da iyi bir şeyler öğretin – çünkü yarın sizi onlar yönetecekler.”; pafoslu vatanseverlik konulu şiirler yazan şairlere, yazarlara ve genel olarak anne-babalara şöyle dermiş: “Çocuklara vatanı sevme dersi vermeyin, buna gerek yoktur. Siz onlara vatanı tanıtın, tanıyınca kendileri zaten seveceklerdir.”); her tepkisi bilgelik (Gedebey”deki “kuzu büyüyünce koyun olacak, bırak koyun olmadan kessinler” hikayesi; “Hiç kimse, duymak istemeyen kişi kadar sağır olamaz” sözü; “Tabiatın öğrenilmesinde sanat – strateji, bilim ise taktiktir” şeklindeki kavram tanımlaması); her hareketi örnek aydın davranışı ve birer hayat dersi olan Xudu Bey, aynı zamanda yaşayan bir efsane olmuştur. Hudu Müellim hakkındaki gerçek efsanelerden birini nakledecek dörtlüğün yorumuna geçeceğim. Dünya Kristollografi biliminin en büyük uzmanlarından ve SSCB”de bu bilimin kurucularından olan Profesör Hudu Memmedov (Xudu Müellim bu ada 1960”da Azerbaycan Türkçesinde yazdığı Kalsium Silikatları və Hidrosilikatların Kristallokimyası adlı monografisi ile layık görülmüştü) bir gün eski bir halının nakışlarını (desenlerini) incelerken ağlamaya başlamış. Dostları onun neden ağladığını sorunca ağlamasının nedenini yaklaşık olarak şöyle anlatmış: “İşte bu halıyı dokuyan güzel – uzun boylu, mavi gözlü, sarışın bir Türk kızı olmuş. Nişanlı imiş – nişanlısı da savaşta. Kız, nişanlısına olan sevgisini ilme-ilme halıya örmüş. Ona hasret kaldığı günleri, haftaları, ayları, yılları nakışların yaddaşına işleyerek anlatmış. Ne yazık ki bu güzel kız arzusuna kavuşamamış, çok



sevdiği nişanlısı ile evlenememiş çünkü müstakbel kocası vatanını düşmanlardan korurken şehit olmuş.... Mavi gözlü Türk kızı da bir daha aile kurmamış...” Hudu Memmedov xalçalarımızı (halılarımızı) “geçmişten geleceğe gönderilen okunmamış (deşifre edilememiş) mektuplar” adlandırıyormuş... Kimya profesörü Hudu Memmedovun edebiyat bilgisi de çok engin olmuş. O, Azerbaycan bayatılarının (manilerinin) hayranı imiş. Rahmetli Ebülfez Elçibey de “Dedem, gözün aydın!” şiirini; rahmetli Memmed Araz “Sen kime gereksen, men kime gerek?!” şiirini Hudu Müellime yazmış... Kendisini şahsen tanıyıp da hakkında konuşan her kes Hudu Müellim için DAHİ sıfatı kullanmaktadır... Hudu Memmedov şehid alimimizdir – 15 Ekim 1988”de Bakü”de, Üzeyir Bey Hacıbeyli”nin ev-müzesinde yapılan ve Azerbaycan”a milli bağımsızlığını yeniden kazandıracak olan Azerbaycan Halk Cephesi tesis toplantısında kalp krizi geçirerek hayata veda etmiştir. Mezarı Bakü”de – İkinci Fahri Hiyaban”dadır. Dörtlüğün yorumu üzerine Her dizesi 7 heceden oluşan bu şiir bayatı (mani) kalıbında kaleme alınmıştır. Mehmet Emin Resulzade”nin de övgüyle söz ettiği milli istiklal şairimiz ve Ord. Prof. Dr. Fuat Köprülü”nün yanında çalışan değerli edebiyat araştırmacısı Emin Abid Gültekin bir makalesinde bayatıyı şiir kavramı değil, musiki kavramı olarak kabul etmektedir (merak edenlere “Azerbaycan Göç Bayatıları” – Halk Kültüründe Göç Uluslararası Sempozyumu, Balıkesir Üniversitesi ve Motif Vakfı, 28-30 Mayıs 2010, Bildiri Kitabı, İstanbul, 2012, ss. 671-693-de yayımlanan çalışmamızı gönderebilirim). Burada söz konusu kavramların bilimsel kaynaklara dayanan açıklamaları vardır. Profesör Mir Celal, bayatıya “idrakin kıvılcımı” der... Çoğumuz diller ezberi olan bu bayatının Hudu Memmedov tarafından yazıldığını bilmeyiz: Bu qala – bizim qala (Bu kale – bizim kaledir) Qaldıqca bizim qala. (Her zaman da bizim kalemiz olsun) Qurmadım özüm qalam, (Kendim kalayım diye kurmadım) Qurdum ki izim qala... (Tarihte izim kalsın diye bu kaleyi kurdum yaptım)...

Hudu Müellimin Naib Bey tarafından gönderilen dörtlüğü ise her şeyden önce hayatın acı gerçekleriyle dolu didaktik bir bayatıdır. Bu bayatının genişletilmiş şekli, Hudu Memmedovun yakın dostu Bahtiyar Vahabzadenin birkaç şiiridir. Bahtiyar Müellimin “Dünyanın”, “Derdimiz” ve diğer şiirleri bu bayatıdan mülhem (ilham alınarak) yazılmıştır. Naib dostumuzun gönderdiği bayatıyı yüzeysel olarak şöyle yorumladık: Dünyadan umma şəkər, Ömrümüzə turp əkər. Dərdimiz yetim qalsa, Bizdən sonra kim çəkər?!

1. Dünyadan umma şəkər: “Dünyadan şeker ummak”, her şeyden önce “hak etmeden ödül beklemek” şeklinde de ifade edebileceğimiz bir ahlak sorunudur. Çünkü sadece ödüllendirilmek, mutlu olmak için dünyaya geldiğini düşünenler, ne yapıp yapıp zorla da olsa mutlu olmak isteyen kişiler, aslında ahlaksız insanlardır. Çevremiz böyle ahlaksızlarla doludur. Özellikle kapitalizmin vahşice yaşandığı Müslüman ülkelerde – aynı zamanda bizim ülkemizde –Müslüman olmamıza, Kur”an”daki “İsraf – haramdır!” hükmüne rağmen korkunç bir kibir ve israf bulunmaktadır. Bazı ülkelerde ilgili memleketin %90 serveti %5 gibi “mutlu azınlıklar”ın elinde toplanmıştır. Dünyadaki sosyal felaketlerin sebebi de alnı terlemeden servetine servet katan bu ahlaksızların, haramzadelerin doyumsuzluğudur...

Gaspıralı İsmail Bey “Avrupa Medeniyetine Bir Nazar-ı Muvazene” adlı eserinde bu adaletsizliği “Hakkaniyet” kavramıyla açıklamaktadır... (bu küçük fakat son derece önemli eseri okumanızı öneriyorum) Hudu Memmedov medeni bir şekilde diyor ki, “Ey insanoğlu – dünyadan bir beklentin olmasın. Eğer hak etmiyorsan, dünyaya yük olarak yaşıyorsan beklentin hiç olmasın! Beklentin vardırsa ahlakın yoktur!..

2. Ömrümüzə turp əkər: “Senin şeker beklediğin dünya” sadece senin ömrüne değil, nefsine yenik düşüp “hak etmeden ödüllendirilmek” beklentinden dolayı hepimizin ömrüne “turp eker”, hepimizi perişan eder. Buradaki “eker” fiilinin (yükleminin) geniş zamanda kullanılması, “hep böyle olmuştur, böyledir, böyle olacaktır” anlamına gelir. Hudu Müellim burada “birimizin yanlışı sadece tek kişiyi değil, hepimizi yakar” demek istemiş, her kesi nefsiyle mücadeleye çağırmıştır. Hiçkimse küs olduğu kapı komşusunun evinde yangın olmasını istemez zira yangın onun da evine sıçrayacaktır. Bu iki mısrayı “ictimai hoşbehtlik (toplumsal mutluluk) yok ise ferdi hoşbehtlik (kişisel mutluluk) da yoktur” şeklinde de yorumlayabiliriz. “Dünyadan şeker umanlar” ise daha çok suçludurlar çünkü içine “turp ekilip” perişan olan ömürler daha çok nefsine köle olanların, “dünyadan şeker bekleyenler”in günahlarının kurbanıdır.

3. Dərdimiz yetim qalsa, “Derdin yetim kalması” soyutun somutlaştırılması, derde bir yavru sevgisiyle yaklaşılması girişimidir. Dert ilahidir, kutsaldır, kişiye özeldir, özellikle insanı daha çok insanlaştıran, onu olgunlaştıran, kamilleştiren bir enerji kaynağıdır. Edebiyatımızda derdin en büyük şairleri “... Bu iniltim Hak”tan geldi... Derdim vardır inilerim” diyen Yunus Emre; “Bana ağlan bana kim kimsene yoktur ölücek... Bir avuç toprak atar bad-ı sabadan gayrı” diyen Necati Bey ve “Felekler yandı ahımdan, muradım şemi yanmaz mı?!” diyen Fuzuli”dir. Böyle bir İlahi Derdi “yetim bırakmak” ise arsızların işidir. Yükü omuzlamayıp kardeşine “ötürenler”in art niyetli kurnazlığıdır.

Hudu Memmedov bir başka bayatısında da yine millete ve dünyaya yük olmaktansa ölmeyi arzulamakta, böyle bir durumda ölümden medet ummaktadır:

**Əlim köməyim olsun,**
**Elim köməyim olsun.**
**Elimə yük olarsam**
**Ölüm köməyim olsun.**

Böyle bir yaklaşım ise ahlaklı bir vatanseverin, serdengeçti bir yurseverin yapabileceği iştir.

4. Bizdən sonra kim çəkər?! Emel dostu Hudu Memmedov”un defin töreni zamanı onun mezarı başında hüngür-hüngür ağlayan Bahtiyar Vahabzade”nin “Men derdden qaçanda derd yalnız qalır... Bu da menim üçün teze derd olur” mısraları “Bizdən sonra kim çəkər?!”in bir başka versiyonudur. Retorik soru (cevabı, içinde olan soru) veya istifham edebi sanatıyla ifade edilen son mısra diğer mısralarla sağlam bir ilişki içindedir. Genel olarak bu bayatıda mısralar arasındaki sağlam yapı ve mantık ilişkisi hayret verici derecede güçlüdür. Zaman ve zemine bakmaksızın geçerliliğini koruyan mesajların daha iyi anlaşılması için şöyle bir rekonstruksiyon yapabiliriz: “[Ey insanoğlu!..] Dünyadan beklentin olmasın; olursa ömrünü perişan eder (ömür tarlana turp eker). Ömrün perişan olursa ölürsün. Ölürsen derdin (yavrun) yetim kalır. Yavrun yetim kalırsa, nasıl büyür? Onu kim büyütür?!” Ramiz Rövşen”in “Dünya qefil işıqlansa” şiiri de aynı mantıkla bitmektedir: “... Bu dünyada bes kim qalar, Kim böyüder uşaqları?! ... Ne yaxşı ki bu dünyamız Yavaş-yavaş işıqlanır...” “Yetim [kalmış] yavrumuzu kim büyütür?!” derdi (stresi, kaygısı, endişesi), “dünyadan şeker ummaktan” bin kat daha ağır, daha ezici ve yıpratıcıdır. En iyisi tabiata hükmetmeğe kalkmamak, onun kurallarına uymaktır. Çünkü cemiyet de tabiatın bir parçasıdır. Dahi yazarımız Cengiz Aytmatov “Gün Uzar Yüzyıl Olur” romanını bu mantık üzerine kurgulamıştır. İddiayla söyleyebiliriz ki, Cengiz Aytmatov”un bu mantığını da pekiştiren Hudu Memmedov olmuştur. Nitekim Aytmatov bir mektubunda şöyle yazmaktadır: “İlim ile sanatın olağanüstü uğurlarını keşf eden, zekası ile “cansız tabiat” terim ve kavramını bilim tarihinden silen Hudu Memmedov”un şahsiyetine de, karakterine de, sadeliğine (alçakgönüllülüğüne) de hayran oldum. Ben Türk dünyasında Hudu Memmedov gibi bir aydının varlığıyla onur duyuyorum.

Benim aziz Hudu Muallimim! Siz benden sadece yaşça büyük değilsiniz, benden sadece 1 yıl 2 gün önce doğmadınız, bütün parametrelerde benden kat kat büyüksünüz!” Düşünce dünyamızı aydınlatan, yüzlerce şiire, hikayeye, poveste, romana ilham kaynağı olan Hudu Memmedov zekası dün ve bugün olduğu gibi yarın da yolumuza ışık tutacaktır...

**Nazim MURADOV**
**(KIBRIS)**

# Vətənə məhəbbət və gözəlliyə vurğunluq

## Əliağa Kürçaylı poeziyasına bir nəzər

**Hələ yeniyetmə və gənclik çağlarında istedadı ilə xalq şairi Səməd Vurğunun diqqətini cəlb edən, keçən əsrin sonlarında klassik şair səviyyəsinə yüksələn Əliağa Kürçaylı bədii yaradıcılığı ilə ədəbiyyatımızı zənginləşdirən müqtədir sənətkarlarımızdan biridir.**



Ə.Kürçaylı həyatın çətinliklərini görmüş, yaradıcılığı ilə poeziyasevərlərin rəğbətini qazanmışdır. Ancaq təəssüf ki, çoxşaxəli poeziyası ilə fərqlənən bu qüdrətli sənətkarın yaradıcılığı tənqidçilər və tədqiqatçılar tərəfindən yetərincə araşdırılmamış, lazımi qiymətini almamışdır.

Düzdür, şair ömrünün son illərində dövlətimiz tərəfindən "Əməkdar incəsənət xadimi" adını və "Bütövlük" kitabına görə Azərbaycan dövlət mükafatına layiq görülsə də, onun istər vətənpərvrlik, istərsə də məhəbbət mövzusunda qələmə aldığı, insanı düşündürən poeziyası kifayət qədər elmi təhlilini tapmamışdır.

Ə.Kürçaylının şeirləri öz üslübu və bədii məziyyətləri ilə digər sənətkarların əsərlərindən asanlıqla fərqlənir, oxucunun qəlbinə yol tapır, yadda qalır. "Dağlar" silsilə şeirləri sanki şairin həyat kredosunu müəyyənləşdirir.

**Əsiri olmadım dövlətin, varın,**
**Axı, nəyi yoxdu bizim diyarın?!**
**Əli kəsiləydi talançıların**
**Qızıldan olardı dirəyim mənim.**

Şair üçün vətən, onun bərəkətli torpağı, geniş düzləri, əzəmətli dağları, zümrüd meşələri, yaşıl bağları çox əzizdir. "Vətən", "Torpağım", "Bizim planet" və digər şeirlərində vətən məhəbbətinin özünəməxsus çalarlarının bədii boyalarla təqdimatı öz yeniliyi ilə diqqəti cəlb edir:

**Mən səndən istədim açıq bir alın,**
**Sən mənə bəxş etdin əzəmət, vüqar.**
**Mən də başı açıq, ayağı yalın,**
**Yolunda can qoysam, yenə az olar.**

**Bəlkə buna görə əzəmətlisən,**
**Nəyin var vermisən əsirgəmədən?!**
**Sən bir ana kimi səxavətlisən,**
**Anam Azərbaycan, vətən, can vətən!**

Ə.Kürçaylı şeirlərində vətənin florasının tablosunu yaratmaqla sadəcə təsvirçiliyi ön plana çəkmir, bu şeirlərdə torpaq, çay, bulaq, ağac, sünbül insan kimi canlandırılır. Şair bu yurdun vətəndaşı olmağı ilə haqlı olaraq fəxr edir. Ə.Kürçaylıya görə insan vətənin gözəlliyindən, çayından, gölündən, dağından, düzündən, göy çəmənindən, buz bulağından, şəhər və rayonların qeyri-adi təbiətindən zövq almalıdır. Axı insan ömrü müvəqqətidir?!

**Vətən intəhasız, ömür azdı, az,**
**Bu qısa ömürdə keçməsin həyat.**
**Adam səadəti evə çağırmaz,**
**Adam səadətin dalınca gedər.**

Ə.Kürçaylı şeirlərində, obrazlılıq, bədii təsvir vasitələri, xüsusən də təşbehlərdən yerli-yerində istifadə etməsi diqqəti cəlb edir. Ə.Kürçaylının gözələ, gözəllik anlayışlarına öz baxışı, münasibəti var. Belə ki, süni bər-bəzəyi, bahalı zinət əşyaları və müxtəlif boyalardan istifadə edərək özünü göstərən qızların, gözəllərin tərəfində dayanmır, əksinə, o, təbii gözəlliyə böyük önəm verir. Şairin təbirincə: "insan fitrətən gözəl olmalıdır". Şeirdəki təşbehlər, mübaliğələr, metaforalar o qədər cəlbedicidir ki, oxucu istər-istəməz şairin bu obrazlı təsvirinə "təslim" olur. Bu baxımdan "Kəndimizin gözəli" adlı şeirinə diqqət edək:

**Durdu,**
**Əl-üzünü yudu o, şehlə,**
**Geydi göy çəməni ayaqlarına.**
**Saçını daradı qövsü-qüzehlə,**
**Bir cüt ulduz taxdı qulaqlarına.**

**Hardasa qalmışdı bir parça gecə -**
**Götürüb sürmə tək çəkdi gözünə.**
**Qızıl dan yerini dərin gizlicə,**
**Sürtdü yanağına, sürtdü üzünə.**

Beləliklə, təbii gözəllik və bu gözəlliyin bənzərsizliyinin insanda yaratdığı xoş əhval-ruhiyyə və cazibəsi şairin poeziyasının ana xəttini təşkil edir. Şairin şeirlərinə sirayət edən gözəllik anlayışı təbiiliklə çuğlaşaraq oxucunu süni gözəlliyə "yox" - deməyə fokuslaşdırır, onu təbii gözəlliyə aludə olmağa səsləyir:

**Axma, "axma" - desə axan suya da,**
**Kimdir o gözəlin sözündən keçə?!**
**…İnsan çöhrəsinə rəng də, boya da,**
**Gərək təbiətin özündən keçə.**

Şairin lirik "mən"i insan ruhunu incələyən, onu mənən qidalandıran gözəlliyə çatmağın, onu əldə etməyin asan yolunu sevinc dolu anlarda axtarmır, sevgisinə qovuşmağın dadını, ləzzətini kədərli anların "süzgəc"indən keçməkdə görür. "İstərəm" şeirində bu məziyyət özünü aydın götərir.

**Bir sən, bir mən olum, bir uçuq kaha,**
**Heç nə istəmirəm taledən daha.**
**Bütün kədərini alıb çox baha,**
**Sevinci havayı satmaq istərəm.**

Həyatda hər şeyin norması, ölçüsü olur. Ancaq bu mizan pozulanda, yəni istək və arzu əlçatan olmayanda insan "dəli" vəziyyətinə düşür:

**Mən bilmirəm zarafatdır, həqiqət,**
**Deyirlər ki, hərə bir cür dəlidir.**
**Özgəsinə söyləməyə nə hacət,**
**Bu söz elə mənə deyilməlidir.**

Şair burada dəliliyi sözsüz ki, vətənə, təbiətə vurğunluq mənasında işlədir. İçində sonsuz vətən sevgisi olan insan öz yurdunu, tarixi yerlərini, bənzərsiz məkanlarını dəlicəsinə sevə bilər. Gündən-günə vətənimizin müxtəlif guşələrindəki dəyişiklik və tərəqqi vətənpərvər şairi riqqətə gətirir, onu yaxşı mənada "dəli" edir. "Səfərdən qayıdanda" adlı şeirdə bu cəhət çox obrazlı şəkildə əlaqələndirilmişdir:

**Bəzən uzaq səfərlərə çıxıram,**
**Bir ay sonra qayıdıram vətənə.**
**El-obama başqa gözlə baxıram,**
**Elə bu vaxt dəli deyin siz mənə.**

**Görürəm ki, Göygöl olub Okean,**
**Qız qalası ucalıbdı əlli qat.**
**Cənnət gözü deyiləndə hər zaman,**
**Lüğətçilər belə yazır: Batabat.**

Şair üçün gözəlliyi duymaq, ondan həzz almaq sadəcə olaraq istək və ehtirasın, ötəri və keçici hislərin ram edilməsi anlamından çox uzaqdır. Ə.Kürçaylı gözəlliyi, təmiz duyğu və hislərin insana bəxş edilən ruhi bir qida kimi təqdim edir. İnsanın əhval-ruhiyyəsinə və ovqatına xoş təsir edən bu bənzərsiz sentimental, romantik duyğuların yüksək cazibə qüvvəsinin orbitindən qurtulmaq, kənara çəkilmək mümkün deyil.

***Çoxşaxəli poeziyası ilə fərqlənən bu qüdrətli sənətkarın yaradıcılığı tənqidçilər və tədqiqatçılar tərəfindən yetərincə araşdırılmamış, lazımi qiymətini almamışdır***

Yaranmışların əşrəfi olan insanın həyatda sevib-sevilmək və gözəlliyi dərindən duymaq instikti gənclik dövründən ta ömrünün axırına kimi onu tərk etmir.

**Saç-saqqalı ağarmış, dünya görmüş bir qoca,**
**Dayanır bir anlığa, çeşməyini düzəldir.**
**O da cavanlar kimi, gözəl qıza baxınca,**
**Köks ötürüb dərindən, deyir: "Bəli, gözəldir".**

**Onun ömrü keçibdir, onun saçları qar tək,**
**Bu gün-sabah bəlkə də karvanın çəkəcək,**
**Bəs o gözəl afətə həsrətlə niyə baxdı?**
**Gözəllikdən doymayır, doya bilməyir insan,**
**O pirani qoca da, ey dost, mənə gəl inan,**
**Gözəl qıza baxmadı, yox, gözəlliyə baxdı!**

Burada şairi coşduran, ona əlavə güc verən təkcə onun gördüyü reallığı təsvir etməsi deyil, bu həm də xalqımızın tükənməz folklorundan süzülüb gələn "Gözəli görmək savabdır" - məsələni özündə ehtiva edir. Ə.Kürçaylının şeirlərinin ruhunda saflıq, təbiilik, məhəbbət yolunda fədakarlıq kimi keyfiyyətlər özünü büruzə verir və orijinal, özünəməxsus yazı manerası olan istedadlı şair Ə.Kərimin "İki sevgi" şeirindəki "Mənsə səni sevirəm iynənin ucu boyda işığa həsrət qalan göz işıq sevən kimi" misraları ilə sanki analogiya təşkil edir:

**Sən mənə lazımsan su tək, hava tək,**
**Sən mənə lazımsan öz canın qədər,**
**Səni arzulayır sinəmdə ürək.**
**Bu böyük həsrəti duymursan məgər?**
**Kef üçün, zövq üçün, nəşəyçün deyil,**
**Xəstəyə dərman tək mənə gərəksən.**

Nəsimi, Füzuli və digər klassiklərimizin qəzəllərində rast gəldiyimiz bədii obraz, təşbeh və mübaliğələr Ə.Kürçaylının heca vəznli şeirlərində özünəməxsus yetkin bir formada təqdim olunur.

Bədii təsvir gücünə malik belə şeirlər heç də qəzəllərdəki aforizmlərin kölgəsində qalmır, yeniliyi və orijinallığı ilə özünü təsdiq edir.

Bu baxımdan, şairin "Mən insanam" şeiri diqqəti çəkir:

**Mən elə ağlaram - göz yaşlarımdan**
**Quruyan otlar da göyərər, bitər,**
**Göylərin leysanlı yağışlarından**
**Yerlərin selindən, suyundan betər.**
**Axar göz yaşlarım, axar sərasər.**

**Mən elə sevərəm - məhəbbətimi,**
**Bölsən bəs eyləyər bütün bəşərə.**
**Elə kin bəslərəm -ədavətimi**
**Töksən daşqın düşər bəhri-Xəzərə,**
**Mənim nifrətimdən yanar dağ-dərə.**

Ə.Kürçaylı yaradıcılığının ana xəttində onun doğma vətənimizə olan sonsuz sevgisi durur.

Bəllidir ki, Azərbaycan torpağının əsrlər boyu hissə-hissə parçalanması ucbatından xalqımızın böyük bir hissəsi bir-birindən ayrı düşmüşdür.

Zaman-zaman şairlərimiz xalqımızı sarsıdan, onu düşündürən bu taleyüklü məsələyə münasibət bildirmişlər.

İnanırıq ki, İranda təhdidlərə məruz qalan xalq azadlığı və müstəqilliyi uğrunda mübarizə apararaq gec-tez öz istəyinə -azadlığına qovuşacaqdır. Bu düşüncə və hislər hələ keçən əsrin 60-70-ci illərində vətəndaş şair Ə.Kürçaylını da narahat etmiş, vətəni bütöv görmək arzuları məhəbbət dolu qəlbini hədsiz dərəcədə narahat etmişdir:

**Arabir gülsəm də, demə arsızam,**
**Məqam gözləyirəm, demə karsızam.**
**Nə qədər Təbrizsiz, Şəhriyasızam,**
**Gülmür, gülməyəcək gözlərim mənim!**

Xalqın dərdini, yaralarını, onu düşdüyü ağır vəziyyətdən qurtaran birlik - bütövlükdür. Vaxtilə görkəmli şair bu bütövlüyün zəruriliyini, vacibliyini uzaqgörənliklə xatırlamışdır. "Bütövlük" adlı şeirdə deyildiyi kimi:

**Neynirəm o yolu ki, gedib birdən dayana,**
**Sahilində Arazın, Kürün, Astaraçayın?!**
**Gərək yollar bütöv bir vətən kimi uzana,**
**Lap insansız qoynuna çata ulduzun, ayın.**

İnanırıq ki, Ə.Kürçaylının canından əziz sevdiyi vətəni bütöv görmək arzusu yaxın gələcəkdə inşallah reallaşacaqdır. Böyük və mənalı ədəbi irs qoyub gedən Ə.Kürçaylının poeziyası filoloqların və tədqiqatçıların diqqətini cəlb edəcək və yaxın illərdə geniş elmi təhlilini tapacaqdır.



**Ehtiram Səfərov,**
**filologiya üzrə fəlsəfə doktoru**

**Azərbaycan poeziyasının, eləcə də milli düşüncə tariximizin ən parlaq simalarından biri Bəxtiyar Vahabzadədir. O, geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri özünüdərkinə, kamil sənətkarlıq məziyyətlərinə görə böyük Şərq mütəfəkkiridir. Onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb edir, o, heç vaxt lokal poetik cizgilərin təsviri ilə kifayətlənmir. Bu poeziyada ədəbi-bədii, ictimai-fəlsəfi, milli-mənəvi və dini komponentlər kül halında qovuşaraq, bəşəri dəyərlər xəzinəsini zənginləşdirir. Bəxtiyar Vahabzadənin poetik təfəkkürünün məğzində millilikdə bəşəriliyin, bəşərilikdə milliliyin harmoniyası ehtiva olunur.**

# Bəxtiyar Vahabzadə: milli və bəşəri ideyaların tərənnümçüsü

*Xalqın həyatı, mübarizəsi, arzu və idealları ilə bağlı olan Bəxtiyar Vahabzadə yaradıcılığı bugünkü gəncliyə bir örnəkdir*



Bəxtiyar Vahabzadə çağdaş poeziyamıza istiqlal ideyaları, mübariz ruhu, azadlıq ehtirası ilə gəlib. Böyük Vətən müharibəsinin ağır illərində bədii yaradıcılığa başlayan şair az keçmədən keçmiş ittifaq miqyasında tanınıb, əsərləri müxtəlif dillərə tərcümə olunub. Həyatın gündəlik problemlərinin dərin fəlsəfi məzmunda poetik yaddaşa gətirilməsi ədəbiyyatımızda Bəxtiyar Vahabzadənin xidmətidir. "Qız qalası", "Sübh şəfəqi", "Zirvələrdə bahar" kitabları ədəbiyyatımıza orijinal, novator bir sənətkarın gəlməsindən xəbər verirdi. Əsərlərinin humanizm, bəşəri ideyalar təbliğ etməsi ilə bağlıdır ki, onun yaradıcılığı sərhəd tanımır, nəinki Şərq ölkələrində, habelə Avropada, Asiyada sevilə-sevilə oxunur.

Bu əsərlərin ən səciyyəvi xüsusiyyəti haqqında düşünərkən, yadımıza, hər şeydən əvvəl "millilik"sözü düşür. Niyə "milli şeir"? Kimdir "milli şair"? Məncə, yalnız millətin adından danışan şair "milli şair" olmur. Xalqın dərd-sərini xalqla bölməyən, vətən parçalananda ürəyi parçalanmayan şairə necə "milli şair" demək olar? Bəxtiyar Vahabzadə bu haqqı əllinci illərdən "Gülüstan" poemasını yazdığı vaxtdan qazanıb. Vətənin iki yerə bölünməsinin tarixi "Gülüstan" müqaviləsi ilə başladığı kimi, ürəyi parçalanan şairin də ağrısı və hayqırtısı "Gülüstan" poeması ilə başlayıb:

**Min ləkə vurdular şərəfimizə**
**Verdik, sahibimiz yene "ver" dedi.**
**Lap yaxşı eləyib doğurdan bizə**
**Biri "baran" dedi, biri "xər" dedi.**

Bütövlükdə o illərin poeziyasında "Gülüstan" təzə bir hadisə idi və tamamilə yeni səpkili bir şairin sənət meydanına qədəm qoyduğunu xəbər verirdi sadəcə olaraq mövcud poetik adlar siyahısına növbəti bir ad, imzalar içinə təzə imza əlavə olunurdu. Poeziyaya milli narahatlığın tərcümanı, xalqın "dərdinin dəlisi", azadlıq, istiqlal uğrunda mübarizənin əsgəri, "vəkili" daxil olurdu:

**Bilmirəm bu millətə**
**Vəkil etdi kim məni?!**

Bu sözlər altmışıncı illrədə yazılmışdı və şairin rəsmən millət vəkili olmasına onda hələ çox qalırdı. Lakin o zamandan Bəxtiyar Vahabzadə özünü sənət mehrabında eşq, gözəllik aşiqi kimi yox, savaş meydanında istiqlal və azadlıq əsgəri hesab edir. Və poeziya da ona yalnız "İstiqlal" adlı ünvana, mənzil başına aparan cığır, yol kimi lazım olur. Daha doğrusu, millətin azadlığını milli poeziyanın böyük idealına o illərdə hamıdan çox Bəxtiyar Vahabzadə çevirir.

50-ci illərin axırında yazılan, "Şəki fəhləsi" qəzetində dərc olunan bu poema sonralar əl-əl gəzir, şüurlarda yeni bir istiqlal düşüncəsi formalaşdırır, sovet imperiyasına qarşı mübarizə, müqavimət istəyini yaradırdı. Həmin poema Azərbaycan KP Mərkəzi Komitəsinin pleniumunda kəskin tənqid olunmuşdur.

Poemada 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan müqaviləyə geniş münasibət bildirilir. Azərbaycanın Gülüstan kəndində bağlanan həmin müqavilə bir xalqın faciələrinin başlanğıcı kimi dəyərləndirilir. Şair bədnam müqavilənin yaratdığı faciələrdən bəhs edir. İki imperiya arasında bağlanan müqavilənin bir xalqı iki yerə parçalamasına kəskin tənqidi münasibət bildirilir.

Poema çox təsirli səhnə ilə başlayır. Biz burada rus və İran diplomatlarının simasını və məqsədlərini müşahidə edirik. Poemanın əvvəlində təsvir edilən hadisələr oxucunu düşündürür. Ötəri xarakter daşıyan, yığcam misralardan ibarət olan bu epizodda biz rus və İran diplomatlarının məqsədi ilə tanış oluruq. Onların Əsas məqsədi öz mənafelərinə uyğun olaraq Azərbaycanı parçalamaqdır:

**Qoyulan şərtlərə biz razıyıq deyə,**
**Tərəflər qol çəkdi müqaviləyə.**
**Tərəflər kim idi? Hər ikisi yad,**
**Yadlarmı edəcək bu xalqa imdad?!**

Xalqın həyatı, mübarizəsi, arzu və idealları ilə bağlı olan Bəxtiyar Vahabzadə yaradıcılığı bugünkü gəncliyə bir örnəkdir. Elə bir nümunədir ki, hələ bundan sonra gələn nəsillər bu ənənədən faydalanacaq, torpağı, vətəni, onun hər bucağını sevməyi böyük şairimizin əsərlərindən öyrənəcəklər. Xalq yazıçısı Mirzə İbrahimov doğru olaraq belə qeyd edir: **"Bəxtiyar Vahabzadəni poetik təfəkkürün bir zirvəsindən o birinəqaldıran, söz yox ki, hər şeydən əvvəl, parlaq istedaddır. O istedad ki, qırx ilə yaxın bir müddətdə gərgin, ilhamlı bir əmək arası kəsilmədən onu müşayiət edir, onunla qaynayıb-qarışmışdır, onun üzvi bir hissəsidir. Əslinə baxanda əməyi yaxşı təşkil etmək, əməyi sevmək, əmək çəkməyi bacarmaq, bir sözlə əmək özü böyük istedaddır. Bədii yaradıcılıqda bu istedad o zaman parlayır, yaxşı ətirli meyvələr, güllər verir ki, o, yaradıcı ürəyin dərinliyində qaynayıb yetişsin, qana qarışsın, qanda yoğrulub ehtirasa çevrilsin. Bəxtiyar Vahabzadənin ildən-ilə artan, kamilləşən xüsusi gözəllik, dərin fəlsəfi məzmun ilə parlayan, genişlənən, yeni çalarlar, yeni məna dolğunluğu, bədii forma rəngarəngliyi kəsb edən yaradıcılığı belə əmək və istedadın rəmzidir".**

Şairin bədii irsində poemaları xüsusi yer tutur.Bəzi mətləbləri, milli problemləri xırda şeir dili ilə demək mümkün olmayanda şair poemalara müraciət etmiş, incə lirizm, dramatik gərginliklə yoğrulan ölməz poemalar meydana gətirmişdir.Ağrıdan, əzabdan, hicrandan yoğrulan bu poemalar B.Vahabzadənin lirik şeirlərində qaldırdığı problemlərin davamıdır. "Gülüstan"dan başlayan bu yol "Yollar-oğullar", "İztirabın sonu", "Etiraf", "Şəbi-hicran" və başqa poemalarında davam etdirildi, ədəbiyyatımızda yeni bir ədəbi zirvə yarandı. Tənqidçi Yaşar Qarayevin dediyi kimi: **"Bəxtiyar ilk gündən doğma, məhrəm obrazdan və simvoldan, əriyən, şəhid olan şamdakı əzabdan və ağrıdan başlayır...".**

Hələ cavan yaşlarından şair poetik imkanlarının genişliyindən istifadə edərək poema janrına müraciət etmiş və bu sahədə nəzərə çarpacaq müvəffəqiyyət qazanmışdır. Bəxtiyar Vahabzadənin "Şəbi-hicran", "Gülüstan", "Ağlar-güləyən", "Yollar və oğullar", "Həyat-ölüm", "Təzadlar", "Dörd yüz on altı". "Muğam", "Atılmışlar", "Mərziyyə", "Ləyaqət", "Şəhidlər" poemaları milli ədəbiyyatımızın əsil xəzinəsidir. İnsan xarakterlərinin hərtərəfli təsviri, hadisələrin daim dinamik inkişafda verilməsi baxımından bu poemalar xüsusi maraq doğurur.

***Həyatın ən acı həqiqətlərinin etirafı olan bu poemalara görə şairin başı çox ağrıyıb***

Həyatın ən acı həqiqətlərinin etirafı olan bu poemalara görə şairin başı çox ağrıyıb. Müxtəlif illərdə sovet hökumətinin xüsusi xidmət orqanlarının yerli-yersiz suallarına cavab verməli olub. "Yollar-oğullar" poemasına görə dəfələrlə istintaqa çağrılıb. Həmin poema ilə əlaqədar incidilən şairin köməyinə Mehdi Hüseyn çatıb. Bəxtiyar Vahabzadə çox sonralar həmin günləri xatırlayaraq yazırdı ki, Mehdi Hüseyn məni evə çağırdı. Qapıda məni qucaqladı, "bizim demək istədiklərimizin hamısını sən demisən" dedi. "Yollar-oğullar" poeması Mehdi Hüseynin yaxından köməyi sayəsində nəşr olunub.

"Şəbi-hicran" poeması M.Füzulinin xatirəsinə həsr edilib. B.Vahabzadə klassik irsimizə xüsusi qayğı ilə yanaşıb, milli ədəbi ənənələrimizdən həmişə bacarıqla faydalanıb. M.Füzuli yaradıcılığı isə şair üçün müqəddəs bir məbəddir, sehr və möcüzədir. Həmin mövzuya müraciət etməsinin də səbəbi budur.

Şərq xalqlarının musiqi yaddaşı, fəlsəfi düşüncələri ilə bağlı olan "Muğam" poeması ədəbiyyatımızda yeni hadisə kimi qarşılandı. Janr etibarilə lirik poema olan bu əsərdə şairin poetik qüdrəti, fikir və hisslərinin təzəliyi diqqəti daha çox cəlb edir. Əsəri oxuyanda istər-istəməz müəllifinin idrakının genişliyinə, poetik imkanlarının hüdudsuzluğuna heyran olmamaq mümkün deyil. Burada təkcə muğam dünyasının sirlərindən bəhs olunmur. Əgər biz bu cür düşünsək, əlbəttə ki, səhv etmiş olarıq. "Muğam" poeması həyat və ölüm, insan və onun mahiyyəti haqqında dərin fəlsəfi düşüncələrin məhsuludur.

B.Vahabzadə sirli-sehrli muğam dünyasının dərinliklərinə enərək onun idraka nüfuzunun səbəblərini üzə çıxarmağa çalışıb. Poemada hər muğamın xüsusiyyətləri, məzmun və mahiyyəti fəlsəfi dillə, poetik imkanlar çərçivəsində təhlil olunur. Eyni zamanda, şair muğamları bir-biri ilə müqayisə etməklə onların hər birinin fərdi keyfiyyətlərini bacarıqla ortaya qoyur. Bu cəhətdən "Segah" ilə "Rast"ın müqayisəsi maraqlıdır:

**Dağlarda göynəyən Məcnundur segah,**
**Rast onun atası... nəsihət eylər,**
**Məcnun səhralara gətirir pənah,**
**Ata bu sevdanı məzəmmət eylər.**

**"Rast"- müdrik bir ağıl, dərin düşüncə,**
**Danışır təmkinlə, aramla, tək-tək.**
**Segah bir istəyin, eşqin dalınca**
**Mələyə-mələyə qaçan bir ürək.**

Cəmi bu iki bənddə şairin muğamlarımızın fəlsəfi mahiyyətinə, musiqimizin dərinliklərinə nə qədər yaxından bələd olması aydın görünür. Muğamın mənasını şair burada sənət dilindən elm dilinə çevirib. "Muğam" poeması təkcə Azərbaycanın deyil, muğamın geniş yayıldığı Şərq ölkələrinin bədii sənət nümunəsidir. Şair muğamın ənənəvi xüsusiyyətlərini önə çəkmək üçün müxtəlif bənzətmələrdən, poetik imkanlardan məharətlə istifadə edib:

**Nə güman eyləmisən ondakı tilsimləri sən,**
**"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam.**

Bildiyimiz kimi, B.Vahabzadə ömrü boyu şeirlərini əsasən heca vəznində yazıb. Lakin "Muğam" poemasında birdənbirə əruz vəzninə müraciət etməsi düşündürücüdür.Şübhəsiz ki, bu səbəbsiz deyil. Muğamların mətni əruz vəznində yazılıb. Buna uyğun olaraq şair yeri gələndə əruz vəznindən istifadə etməklə fikrinin oxuculara daha sərrast çatmasına nail olub. Bəxtiyar Vahabzadə daim yaradıcılıq axtarışlarını davam etdirib. Yeni forma, yeni məzmun axtarışlarında çox şeyə nail olmağı bacarıb. "Muğam" poemasını oxuyanda biz bunun həqiqət olduğunu bir daha yəqin edirik.

Gənclərin və yeniyetmələrin tərbiyəsinə, təhsilinə həsr olunan "Qiymət" poemasının lirik qəhrəmanı şair və müəllimdir. Bəxtiyar Vahabzadə əsərdə bu iki sənəti bir-biri ilə qarşılaşdırır, onların hansının üstün olmasını müəyyənləşdirməyə çalışır:

**Müəllimlik - mənim günüm, həyatım,**
**Şairlik ən uca duyğularımdır.**

Bu iki sənətin müqayisəsində B.Vahabzadə şairliyə daha çox üstünlük verir. Hətta müəllimlikdəki nöqsanlarına da şair kimi baxır, hər iki sənətdə həmişə ucada durmağa, ləyaqətini qorumağa çalışır.

**(Davamı 15-ci səhifədə)**

# “Təzadlar”ın Dövlət İmtahan Mərkəzinə qarşı apellyasiya şikayəti sərəncama götürülüb

*Bakı Apellyasiya Məhkəməsi Bakı İnzibati Məhkəmənin hakimi Orxan Həsənovun qanunsuz və əsassız qərardadına hüquqi qiymət verəcək*

**Xəbər verdiyimiz kimi, fevralın 14-də Bakı İnzibati Məhkəməsində “Təzadlar” qəzetinin Dövlət İmtahan Mərkəzinə qarşı inzibati iddiasına baxılmışdır. Məhkəmənin İş№-2-1(112)-17311/2024 saylı, 28.12.2024-cü il tarixli SƏRƏNCAM-ı ilə iddia ərizəsi və ərizəyə əlavə edilmiş sübutlar hakim Orxan Həsənovun icraatına verilmiş, feralın 14-də Azərbaycan Respublikası İPM-nin 47-ci və 49-cu maddələrinə əsasən, iddiaçı “Təzadlar” Qəzeti Redaksiyasının cavabdeh Dövlət İmtahan Mərkəzinə qarşı “İnformasiya sorğusunun cavablandırılması” tələbinə dair iş üzrə iddia ərizəsinə Bakı İnzibati Məhkəmənin hakimi Orxan Həsənovun sədrliyi ilə baxılmışdır.**



> *“Bakı İnzibati Məhkəməsinin icraatında olan iş materiallarındakı sübutlar bir daha göstərir ki, iddia tələbi təmin olunmalı və məhkəmə DİM üzərinə sorğunu cavablandırmaq öhdəliyini qoymalı idi”*

Hakim iddianın baxılmasının mümkünsüzlüyü barədə (e-2-1(112)-5911/2025 nömrəli iş üzrə) 14.02.2025-ci il tarixdə qanunsuz və əsassız qərardad qəbul etmişdir.

Redaksiya məhkəmənin həmin qanunsuz qərarından apellyasiya şikayəti vermişdir. Artıq Bakı Apellyasiya Məhkəməsi şikayəti icraata götürmüşdür. Məhkəmənin hazırlıq iclası aprelin 22-nə təyin edilmişdir.

***

Xatırladırıq ki, “Təzadlar” qəzetinin rəsmi nümayəndəsi Asif Mərzili apellyasiya şikayətində yazır: “Bildirirəm ki, Bakı İnzibati Məhkəməsi (İş № e-2-1(112)-5911/2025) “Təzadlar” Qəzeti Redaksiyasının cavabdeh Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinə qarşı “İnformasiya sorğusunun cavablandırılması” tələbinə dair inzibati işə açıq məhkəmə iclasında baxaraq, 14 fevral 2025-ci il tarixli qərardad qəbul etmişdir. Qərardad qəzetin rəsmi nümayəndəsi olaraq tərəfimdən dəfələrlə tələb edildikdən sonra mənə məxsus elektron məhkəmə portalına yalnız 17 fevral 2025-ci il tarixdə daxil edilmişdir.

**Apelyasiya şikayətinin hüquqi əsasları:**

Bakı İnzibati Məhkəməsi (hakim Həsənov Orxan Xaqani oğlunun sədrliyi ilə) Azərbaycan Respublikası İnzibati-Prosessual Məcəlləsinin 35, 80, 81 və 85.1-ci maddələrini rəhbər tutaraq əsassız olaraq “İddia tələbinin mümkün sayılmaması” barədə Qərardad qəbul etmişdir. Məhkəmə iddia ərizəsini və iş materiallarındakı digər sənədləri nəzərdən keçirmədən, qanunvericiliyin tələblərinə uyğun olaraq sübutları nəzərə almadan (gizlədərək) əsassız olaraq hesab edib ki, iddiaya baxılması mümkün sayılmamalıdır. Məhkəmə iş materiallarındakı maddi prosessual sübutları deyil, cavabdehin məhkəmənin 14 fevral 2025-ci il tarixli hazırlıq iclasında mənə və məhkəməyə təqdim etdiyi “İddia tələbinə etiraz” məktubunda yazılanlara bir-bir istinad edərək qanunsuz qərardad qəbul etmişdir. Məhkəmə qərardadından sitat: **“Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 35.1-ci maddəsinə əsasən, bu Məcəllədə başqa qayda nəzərdə tutulmamışsa, iddiaçının iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində onun hüquqlarının və qanunla qorunan maraqlarının pozulduğunu əsaslandırdığı hallarda... iddia mümkün sayılır”.** Məhkəməyə təqdim etdiyim həm iddia ərizəsində, həm də iddiaya əlavə edilmiş maddi prosessual sübutlarla inzibati orqan olan Dövlət İmtahan Mərkəzinin hərəkəti və ya hərəkətsizliyi nəticəsində qəzetin (jurnalistlərin) “Media haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunlarla qorunan hüquqlarının və media maraqlarının kobud surətdə pozulduğunu bildirmiş, bunu sübutlarla əsaslandırmışam. Lakin məhkəmə isə nümunə göstərdiyi **İnzibati Prosessual Məcəllənin 35.1-ci** maddəsinin tələblərinə zidd olaraq qəzetin və jurnalistlərin qanuni maraqlarının pozulduğunu qəsdən nəzərə almamışdır. Belə ki, **“Media haqqında” Qanunun 5-ci (Maddə 5. “Media azadlığı”) maddəsində yazılır: “5.1. Azərbaycan Respublikasında media azaddır.**

**5.2. Media sahəsində dövlət senzurası...**

**5.3. Media sahəsində fəaliyyətin azadlığı hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır”.**

Qanunun 6-cı **(“Maddə 6. Jurnalist fəaliyyətinin təminatı”) maddəsində yazılır:**

**“6.1. Jurnalistlər müstəqillik, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər.**

**6.2. Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.**

**6.3. Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş məlumatların toplanması, hazırlanması, redaktə və istehsalı, ötürülməsi, habelə həmin məlumatlara dair fikir bildirilməsi (şərh verilməsi) ilə bağlı jurnalistlərin təqib edilməsi və onlara təzyiq göstərilməsi yolverilməzdir”.**

Nəhayət, bu qanunun **17-ci maddəsində ((“Maddə 17. Məlumat almaq hüququ”), həmçinin “İnformasiya əldə etmək haqqında” Qanunun 24-cü maddəsində) deyilir:**

**“17.1. Media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər. Bu hüquq qanunla müəyyənləşdirilmiş hallardan başqa məhdudlaşdırıla bilməz.**

**17.2. Dövlət orqanları (qurumları), bələdiyyələr, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında informasiyanı media subyektlərinin və jurnalistlərin yazılı və şifahi sorğusu əsasında, habelə mətbuat konfransları və ya brifinqlər keçirmək yolu ilə yaxud başqa formalarda verirlər.**

**17.3. İnformasiya əldə edilməsi barədə yazılı sorğuya “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Həmin Qanunda göstərilən müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 (iyirmi dörd) saatdan gec olmayaraq cavab verilməlidir.**

**17.4. Media subyektləri və jurnalistlər məlumatı verməkdən imtina edən dövlət orqanlarından (qurumlarından), bələdiyyələrdən, müəssisə və təşkilatlardan, qeyri-hökumət təşkilatlarından, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən qanunla müəyyənləşdirilmiş qaydada şikayət etmək hüququna malikdir”.**

Bakı İnzibati Məhkəməsinin icraatında olan iş materiallarındakı sübutlar bir daha göstərir ki, iddia tələbi təmin olunmalı və məhkəmə DİM üzərinə sorğunu cavablandırmaq öhdəliyini qoymalı idi. Mən təmsil etdiyim media subyektinin iddia ərizəsində xüsusi olaraq qeyd etmişəm və məhkəmənin hazırlıq iclasında da diqqətə çatdırmışdım ki, Dövlət İmtahan Mərkəzi rəhbərliyinin sorğumuzu cavablandırmaması qəzetin və jurnalistin “Media haqqında” və “İnformasiya əldə etmək haqqında” qanunlarda nəzərdə tutulmuş hüquqlarının kobud surətdə pozulmasına, həmçinin peşə fəaliyyətinə ciddi maneçilik törədilməsi əməlidir. Çünki redaksiya əməkdaşlarının bu məzmunda hazırladığı araşdırma yazısının əsas predmetlərindən biri də DİM-ə göndərilmiş həmin sorğunun cavablandırılması idi. **DİM rəhbərliyinin sorğunu cavablandırmaması peşə fəaliyyətimizə mane olmaqla yanaşı, qanunvericilikdə nəzərdə tutulduğu kimi, düzgün və dəqiq informasiya almaq hüququmuz üzərinə senzura tətbiqi və peşə fəaliyyətimizə ciddi maneçilik deməkdir.**

Jurnalistin peşə fəaliyyətinə maneçilik **Azərbaycan Cinayət Məcəlləsinin 163-cü maddəsində** sanksiyalaşdırılıb. Həmin maddəyə əsasən, ***“...jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma, yəni jurnalisti məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya məcbur etmə 500 yüz manatdan min manatadək miqdarda cərimə və ya 1 (bir) ilədək müddətə islah işləri ilə cəzalandırma nəzərdə tutulub. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə 3 (üç) ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə islah işləri ilə və ya 1(bir) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.***

**İNZİBATİ QANUNUN TƏLƏBLƏRİNİN POZULDUĞU HALLAR:**

Qeyd edim ki, **Azərbaycan Ali Məhkəmə Plenumunun “İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair” 10 aprel 2015-ci il tarixli 5 saylı Qərarında** deyilir: **“İddiaya baxılmasının mümkünlük şərtləri iddiaya mahiyyəti üzrə baxmağa imkan verən şərtlərin mövcudluğunun yoxlanılmasını nəzərdə tutur. (1.3-cü bənd);**

**İddianın mümkünlüyü onun əsaslılığının yoxlanılmasından əvvəl aparılan hüquqi dəyərləndirməni səciyyələndirir (1.4-cü bənd);**

**Məhkəmə mümkünlük şərtlərinin mövcudluğunu tərəflərin nəyi bildirməsindən asılı olmayaraq, məhz özünün xidməti vəzifəsinə görə yoxlamalı, qərar verməlidir (2.1-ci bənd);**

**Adı çəkilən qərarda, eləcə də Azərbaycan Respublikası İPM-nin tələblərində qeyd edilir ki, məhkəmələr ilk növbədə iddiaçının həmin iddia tələbi üzrə subyektiv hüququnun olub- olmamasını, cavabdehin həmin iddiaya cavab verməli olub-olmamasını... yoxlamalıdırlar (2.3-cü bənd)”.**

Subyektiv hüququn mahiyyətini açıqlayan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30 iyul 2008-ci il tarixli qərarında ifadə edilmiş hüquqi mövqeyinə görə, subyektiv mənada hüquq normativ-hüquqi aktlarla müəyyən olunmuş zahiri azadlığı ifadə edir. O da nəzərə alınmalıdır ki, hər hansı bir iddiaya mahiyyəti üzrə baxılması üçün iddiaçının iddia tələbinin təmin olunmasında hüquqi marağı olmalıdır. Təəssüflər olsun, İnzibati-Prosessual Məcəllənin iddia tələbinə mahiyyəti üzrə qətiyyən dəxli olmayan maddələrini söz xatirinə Qərardadında təkrarlayaraq və hüquqi əsaslar olmadığı halda, ardınca iddianın mümkünsüzlüyünü əsaslandırmağa çalışmışdır. Halbuki mövcud qanunvericilik aktlarında aydın şəkildə yazılıb: **“Hüquqi maraq- şəxsin çatmağı arzuladığı məqsədin nədə ifadə edilməsini ehtiva edir”.** Təmsil etdiyim qəzetin iddia tələbində hüquqi maraq aydın şəkildə, sübutlarla, qanunvericiliyin üzərimizə qoyduğu vəzifələrin təsviri ilə ifadə edildiyi halda, Bakı İnzibati Məhkəməsinin hakimi tamamilə fərqli əsasları sadalamışdır.

Məhkəmə qeyd edir ki, iddiaçının hüququ marağının mövcud olub-olmamasının müəyyən edilməsi iddianın mümkün olub-olmamasının müəyyən edilməsi ilə birbaşa asılıdır. Yəni, iddiaçının iddia qaldırmaqda hər hansı hüquqi marağı mövcuddursa, başqa sözlə, qaldırılan iddia onun hüquq və mənafelərinin müdafiəsi ilə bağlı qaldırılmışdırsa, iddia mahiyyəti üzrə qiymətləndirilməlidir.

**Çox təəssüflər olsun, məhkəmə iş materiallarını oxuyub təhlil etmədən, sübutları qiymətləndirmədən və nəzərə almadan, qabaqcadan özünü qanunsuz və əsassız qənaətə gəlməyə və buna uyğun qərardad qəbul etməyə kökləmişdir.**

Bakı İnzibati Məhkəməsi Ali Məhkəmə Plenumunun yuxarıda qeyd edilən Qərarının tərəfimdən verilmiş iddia tələbinə heç bir aidiyyəti olmayan maddələrini sadalayaraq qeyd edir ki, **“Hazırkı halda şəxsin hansı təhsil müəssisəsinə qəbul olunması barədə informasiyanın əldə edilməsinə yönələn iddiaya münasibətdə hər hansı hüquqi marağın mövcudluğu istisna edilməlidir”.**

**(Davamı 13-cü səhifədə)**

# "Təzadlar"ın Dövlət İmtahan Mərkəzinə qarşı apellyasiya şikayəti sərəncama götürülüb

*"Sanki məhkəmə hakimi cavabdehin niyyət və məqsədini əsaslandırmaq üçün ona vəkillik edirdi, dəstək verirdi"*

(Əvvəli 12-ci səhifədə)

Axı mən yuxarıda hüquqi marağın nədən ibarət olmasını həm iddia ərizəmdə, həm də məhkəmənin hazırlıq iclasında aydın şəkildə məhkəmənin diqqətinə sübutlarla çatdırmışam. Hakim isə əsassız olaraq, "Məhkəmə və hakimlər haqqında" Qanunun tələblərini pozaraq məhkəmənin iclas zalında cavabdehə tutalqa verən sorğu-sualla məndən dəfələrlə soruşmuşdur ki, "Sizin bu məlumatı əldə etməkdə məqsədiniz nədir?". Ardıncı eyni sualı mənə cavabdehin nümayəndəsi vermişdir. Sanki məhkəmə hakimi cavabdehin niyyət və məqsədini əsaslandırmaq üçün ona vəkillik edirdi, dəstək verirdi. Mən konkret sübutlarla və qanunvericiliyin tələblərini göstərməklə məhkəmənin diqqətinə çatdırmışam ki, **"Tələbimiz DİM-dən hansısa informasiyanın istənilməsi də deyil, tələbimiz- Bağırov Nahid Rza oğlu adlı şəxsin özü tərəfindən vəzifə tutduğu dövlət qurumunun rəsmi saytında yayımladığı faktın təsdiqidir!" (Foto-1).**

Burada hər hansı qəliz, yaxud mürəkkəb bir hüquqi məntiq varmı?

Məhkəmə qeyd edir ki, **"Subyektiv hüququn mövcud olmaması baxımından da iddia mümkün iddia hesab edilmir".**

Niyə? Axı mən həm DİM-ə göndərdiyim rəsmi-yazılı sorğuda, həmçinin iş materiallarındakı mötəbər maddi sübutlarla aydın şəkildə izah etmişəm ki, mövcud subyektiv hüquqlar nələrdən ibarətdir! Bəli, qanunvericilikdə subyektiv hüququn tərifi verilib: **"Subyektiv hüquq-şəxsiyyətin azadlığını, bu və ya digər davranışının mümkünlüyünü, sərbəstlik və təşəbbüskarlıq göstərmək imkanını hüquqi cəhətdən təmin edir. Hazırkı növ məlumatın əldə edilməsinə münasibətdə məhkəmə hesab edir ki, şəxsin subyektiv hüququnun mövcudluğundan söhbət gedə bilməz".**

Axı bunun iddia tələbinə nə dəxli və iddia tələbinə nə aidiyyəti var? Sübutlar ki ortadadır.

Məhkəmə tamamilə əsassız, qanunsuz olaraq belə bir qənaətə gəlmişdir ki, **"Hüquqi şəxsin mətbuat orqanı olması da, göstərilən növ məlumatın xarakteri nəzərə alınmaqla əldə edilməsinə hər hansı subyektiv hüquq yaratmır. Nəzərə alınmalıdır ki, şəxsin (barəsində məlumat istənilən N.Bağırovun.Red.) hər hansı, eləcə də ictimai əhəmiyyətli vəzifə tutması ona dair bütün növ məlumatların əldə edilməsinə subyektiv hüquq yaratmır. Şəxsin hər hansı təhsil müəssisəsinə qəbulu və buna dair əlaqəli məlumatlar iddiaçı üçün tələb edilməsinə münasibətdə subyektiv hüquqla ehtiva olmayan məlumat hesab edilir ki, göstərilən səbəbdən də iddia mümkün hesab edilməməlidir".**

Məhkəmə yalan olduğunu bilə-bilə, qəsdən "Şəxsin hər hansı təhsil müəssisəsinə qəbulu və buna dair əlaqəli məlumatlar iddiaçı üçün tələb edilməsi..." məsələsini qərardadının əsaslandırıcı hissəsində bildirir. Axı mən DİM-dən vətəndaş N.Bağırovun hər hansı təhsil müəssisəsinə qəbulu və ya buna dair əlaqəli məlumatların verilməsini xahiş etməmişəm. Məhkəmə bunları haradan uydurmuşdur??? Yəqinki məhkəmənin iclas protokolunun videoyazı görüntülərində də vardır ki, hakim sorğunun vərəqdə təqdim olunmasını istədi, mən məhkəmə zalında ona təqdim etdim, məzmununu da bildirdim. Təkrarən izah etdim ki, biz DİM-dən şəxs barədə hər hansı fərdi məlumatı, yaxud onun hansı Ali təhsil müəssisəsinə qəbul olunub-olunmaması barədə məlumat istəməmişik.

**"Hüquqi şəxsin mətbuat orqanı olması da, göstərilən növ məlumatın xarakteri nəzərə alınmaqla əldə edilməsinə hər hansı subyektiv hüquq yaratmır..."** deməklə məhkəmə niyə bu qədər gülməli olsa, belə bir absurd nəticəyə gəlmişdir. Halbuki 1993-cü ildən nəşr edilən, Dövlət Reyestrində təmsil olunan, Beynəlxalq mükafatlara layiq görülən, Avropa Mətbuat Federasiyasının üzvü və Avropanın 38 ölkəsində akreditə hüququ alan, hüquqi şəxs- "Təzadlar" qəzetinin mətbuat orqanı olması, əksinə, onun tələb edilən məlumatın təsdiqini DİM-dən tələb etməsinə bütün prosessual hüquqları yaratmışdır! Həmin hüquqlar "Media haqqında" Qanunda ətraflı ifadə edilmişdir.

Bakı Apellyasiya Məhkəməsi İnzibati Kollegiyasının diqqətinə çatdırıram ki, iddia tələbi tamamilə əsaslıdır. Çünki mən iddia tələbində vətəndaş N.Bağırovun özü tərəfindən təmsil olunduğu rəsmi dövlət qurumunun- İsmayıllı rayon İH-nin rəsmi saytında yayımladığı məlumatın DİM tərəfindən təsdiqini istəmişəm.

### FAKTLARIN MÖTƏBƏRLİYİ VƏ İDDİA TƏLƏBİNİN ƏSASLILIĞI

Məhkəmənin diqqətinə çatdırıram ki, N.Bağırov özünün sosial mediada və İsmayıllı RİH-nin rəsmi saytında yayımladığı məlumatında bildirir ki, o, 199-cu ildə Azərbaycan Beynəlxalq Universitetini bitirmişdir. Sorğulayaraq əldə etdiyimiz rəsmi cavab məlumatında isə yazılır: **"Azərbaycan Beynəlxalq Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 1997-ci il tarixli, 204s saylı qərarı ilə qeydiyyatdan keçərək özəl ali məktəb statusu almışdır. Universitet, həmçinin Ədliyyə Nazirliyinin 17 oktyabr 1997-ci il tarixli 15 saylı şəhadətnaməsini alaraq dövlət qeydiyyatından keçmişdir. 1998-ci ildə Təhsil Nazirliyinin 04.12.1997-ci il tarixli 48-11-4058/16 nömrəli qərarı ilə ilk dəfə, 1999-cu ildə 6 il müddətinə, 2005-ci ildə isə 5 il müddətinə fəaliyyəti üçün yenidən lisenziya almışdır. Universitetdə bakalavr hazırlığı üçün 4 il vaxt norması nəzərdə tutulmuşdur".**

N.Bağırov rəsmi məlumat lövhəsində yazır: **"Bağırov Nahid Rza oğlu: 4 aprel 1979-cu ildə Bakı şəhərində anadan olub, orta təhsilini Bakı şəhəri 242 və 151 saylı məktəblərdə alıb. 1999-cu ildə Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakültəsini, 2006-cı ildə isə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq Fakültəsini bitirmişdir".**

Göründüyü kimi, o, 1997-ci ildə fəaliyyətə başlamış ABU-nu 1999-cu ildə bitirmişdir. Hansı ki, Nazirlər Kabinetinin və Ədliyyə Nazirliyinin qərarında ABU-da bakalavr təhsilin müddəti 4 il nəzərdə tutulmuşdur. Elə isə, şəxsə 2 ilə ali təhsil diplomu verilə bilməzdi.

Beləliklə, təqdim edilən və iş materiallarındakı maddi prosessual sübutlar bir daha təsdiq edir ki, iddia tələbi tamamilə əsaslıdır, iddiaya inzibati məhkəmədə baxılması mümkün sayılmalıdır.

**Beləliklə, yuxarıda qeyd edilənləri və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tələblərini nəzərə alaraq məhkəmədən**

**XAHİŞ EDİRƏM:**

**- "Təzadlar" qəzetinin Dövlət İmtahan Mərkəzinə qarşı "İnformasiya sorğusunun cavablandırılması" tələbinə dair Bakı İnzibati Məhkəməsinin (İş № e-2-1(112)-5911/-2025) iddia tələbinin mükünsüzlüyü barədə qəbul etdiyi 14 fevral 2025-ci il tarixli qərardadı ləğv edilsin;**

**- İş materialları yenidən baxılması üçün ilkin baxış mərhələsinə qaytarılsın".**

**Elçin Məmmədli**




## Allah rəhmət eləsin!

Qeys Talıbov, Rafiq Məmmədov, Nağı Həsənov, Tahir Mövsümov, İlqar Qarayev və Elçin Məmmədli yaxın dostları Eldəniz Əsədova anası

**Zərifə xanım Əsədovanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Yeri cənnətməkan olsun.

# Bəxtiyar Vahabzadə: milli və bəşəri ideyaların tərənnümçüsü

*"Bəxtiyar Vahabzadənin hər yeni əsəri etirafdır"*



(Əvvəli 13-cü səhifədə)

Poemadan görünür ki, şair öz tələbələri ilə həmişə fəxr edir. Çalışır ki, onların qiymətləndirilməsində obyektivlikdən uzaq olmasın. "Qiymət" poeması müəllimin, pedaqoqun, mütəfəkkir sənətkarın müşahidələri əsasında yazılıb. O, tələbələrinin hər birini diqqətlə izləyir, nəyə qadir olduqlarını dəqiqləşdirir, heç kəsin haqqının tapdalanmasına yol vermək istəmir:

**Kimi cəsarətlə çəkir bileti,**
**Kimi qorxa-qorxa yanaşır mizə.**
**Kimi biliyindən umur qiyməti.**
**Kim isə güvənir mürvətimizə.**

Şair məntiqli cavablardan çox razı qalır. Çalışır ki, tələbələr müstəqil cavab versinlər. Kiminsə fikrini təkrarlamasınlar. Həmişə müstəqil olmağa çalışsınlar. Səhv etsələr də, bəziləri müstəqil şəkildə nöqsanlarını düzəltməyə qadir olsunlar:

**Yanlışı zamanın özü düzəldir,**
**Fikri də istərəm mən əlvan-əlvan.**
**Özünün yanlışı min pay gözəldir,**
**Özgənin düzünü təkrarlamaqdan.**

Tələbənin müəllimin mühazirədə dediklərini özü dərk etdiyi formada qaytarması şairi razı salır. Düşünür ki, tələbə daha da irəli getməli, hətta öz müəllimini də keçməlidir. Belə olmasa, heç bir inkişafdan söhbət gedə bilməz. Tədqiqatların birində qeyd edilir ki, "Qiymət" poemasının mərkəzində belə bir fikir durur: Böyük zəhmət, yuxusuz gecələr hesabına aldığın biliklə sənət sahibi olsan da həyatda müvəffəqiyyət qazanmaq olmaz. Şeirdə gənclik üçün böyük tərbiyəvi əhəmiyyəti olan bir məsələdən danışılır. Məktəbi başa vurduqdan sonra daim öyrənməsən, yeniliyə, tərəqqiyə can atmasan, çətinliyə qalib gəlmək üçün zəhmətə qatlaşmasan, çəkdiyin zəhmət hədər gedər, dövrümüzə layiq vətəndaş ola bilməzsən.

Şair istəmir ki, tələbə öz müəlliminə büt kimi baxsın. Çünki o da insandır. Onun da öz düşüncələri, müstəqil fikirləri var. Ola bilər ki, onun fikirləri müəyyən məqamlarda müəllimin fikirləri ilə üst-üstə düşməsin. Bu, təbii haldır. Müəllimə büt kimi baxan tələbə müstəqil düşüncədən məhrum olar:

**Mənim yana-yana dediklərimi,**
**Sən mənə qaytardın bu gün başqa cür.**
**Sən səcdə qılsaydın mənə büt kimi,**
**Mən sonzuz olardım, şükür, çox şükür.**
**Bir təzə rəng verdin sən hər mətləbə,**
**Bu böyük zəfərdir, bu ki, dərd deyil.**
**Şagird ustadından neçə mərtəbə**
**İrəli getməsə, o şagird deyil!**

Bəxtiyar Vahabzadənin hər yeni əsəri etirafdır. O, bir şair kimi, vətəndaş kimi həmişə öz nöqsanlarını etiraf edir, bu məsələdə səmimi olmağa çalışır. "Qiymət" poeması da şairin həmin silsilədən olan əsərlərinin ən nümunəvisidir. Öz səhvlərini vaxtında dərk edən, həmin səhvləri bir daha təkrar etmək istəməyən tələbələr "Qiymət" poemasında alqışlanır. Tələbəyə iki yazmaq müəllim üçün çox ağırdır. Bunun baş verməməsi üçün tələbə çalışmalı, müəllimin etimadına layiq olmalıdır. Əks təqdirdə "iki" qiyməti onun məsləkində ləkəyə bənzəyəcək:

*Əgər tələbə imtahandan kəsilirsə, nəticədə müəllim də imtahandan çıxa bilmir*

**"İkilər" hər biri qara xal kimi**
**Onun məsləkində qaralıb durur.**

Tələbənin iki alması təkcə onun məsuliyyəti deyil. İmtahanda kəsilən tələbə olsaydı, bəlkə də bununla barışmaq da olardı. Ancaq şairin fikrincə, tələbə ilə birlikdə müəllim də imtahan verir. Əgər tələbə imtahandan kəsilirsə, nəticədə müəllim də imtahandan çıxa bilmir. Bu məqamda tələbə ilə müəllim məsuliyyəti bölüşür:

**Kəsilən tələbəm deyil, yaxşı bil,**
**Vəzifə başında kəsilən mənəm!**

Bəxtiyar Vahabzadə poeziyası əxlaq, mənəviyyat, milli və bəşəri dəyərlərə hörmət poeziyasıdır. Odur ki, bu poeziya həmişə qiymətini saxlayacaq və nəsillərə nümunə olacaqdır.



**Vaqif Allahverdiyev,**
**ADPU-nun Ağcabədi filialının dosenti**

# TƏZADLAR

03 (2391) 18.03.2025 www.tezadlar.az


## Həftəbecər



Müğənni Aygün Kazımova "Tarixin bir günü" verilişində Namiq Qaraçuxurludan danışarkən belə deyib: "Etiraf edirəm ki, aramızda yaşanan, baş verənlər, enerji, yaradıcı tandem, heç bir duet ortağımla yaşanmır. Namiqin mənim zarafatlarımdan xoşu gəlmir. Amma mən Namiqlə zarafat etməyi xoşlayıram".

***P.S. Allah sənin də xasiyyətini kəssin, Aygün xanım! Əlbəttə ki, Namiqin sənin zarafatlarından xoşu gəlməz dəə... Rəhmətliyin qızı, illər öncə Namiqlə bir neçə il zarafat etdin, bununla da yazığın bütün enerjisi getdi. Yazıq Namiq sənin o zarafatlarından, etdiklərindən bir dəri, bir sümük qalmışdı. Hələ indi-indi özünə gəlməyə başlayır. Aygün xanım, zarafatlardan xoşu gəlmirsə, o zarafalar onun bütün enerjisini çəkib aparırsa, nə olar, yazıqdır, etmə Namiqlə o zarafatları, bədbəxt eləmə o yazığı...***

***

Dövlət Turizm Agentliyinin başı üzərində qara buludlar dolaşır. Agentliyin rəhbəri Fuad Nağıyev şiddətli töhmət alıb, Aparat rəhbəri Kənan Qasımov, turizm siyasəti və strategiyası şöbəsinin müdiri Məhəmməd Muradov işdən çıxarılıblar. Agentliyin vəzifəsi bildirilməyən əməkdaşı Nicat Hüseynov isə həbs edilib.

***P.S. Yəqin ki, həbs edilən bu Nicat Qasımovu "içəri" göndəriblər ki, Fuad Nağıyev, Kənan Qasımov, Məhəmməd Muradov və digərləri üçün rahat yer hazırlasın. Özləri də yaxşı bilirlər ki, Azərbaycan turizminin başına nə oyun açıblar. Bakıda və bölgələrdə otellərin bir günlük puluna Gürcüstanda və Türkiyədə bir həftə yeyib-içib, dincəlmək olur. İstirahət məkanlarında yeyib-içməyin kəllə-çarxa qalxan qiymətlərinin tüstüsü gələn turistlərin cibindən və təpələrindən çıxır. Ona görə həm yerli, həm də əcnəbi turistlər bizim gözəl, səfalı məkanlarımıza gəlmək istəmirlər. Bu isə ölkəmizə qarşı təxribat yox, əsl terrordur. Belə terror törədənlər isə, mütləq "içəridə" istirahət etməyi haqq ediblər.***

***

SOCAR-ın sabiq vitse-prezidenti Mikayıl İsmaylovun oğlu Orxan İsmayılzadə məhkəməyə verilib. Verilən məlumata görə, Fidan Abbasova adlı bir qız uzun illərdir qızı Nilin atasının məhz Orxan İsmayılzadə olduğunu sübut etməyə çalışır. Papasının gül balası Orxan da bundan boyun qaçırır, qızına özünün adını və soyadını vermək istəmir.

***P.S. Oliqarx məmurların Orxan kimi belə balaları yetərincədir. Orxan kimi pullu oğulların aldadıb, bədbəxt etdiyi qızlaırın çoxsunun qorxudan səsləri çıxmır. Təmiz, namuslu qızların, pula olan ehtiyaclarından sui-istifadə edərək Orxanlar onların başlarına min bir oyun açırlar. Sonra da deyirik ki, əxlaqsız qızların sayı niyə getdikcə artır? Bu yerdə ustad şairimiz Nəriman Həsənzadənin hələ sovet dövründə böyük rezonans doğurmuş və başına çoxsaylı bəlalar gətirmiş "Kimin sualı var" poemasından bir parça yada düşür. Şair poemada tələbə yoldaşının onlara dərs deyən professor atasına müraciətlə belə deyir:***

**"Biz elə bildik üçüncü kursdan**
**Əmrlə qovdular sənin oğlunu.**
**Aldadıb-atdığı qızdan necə?**
**Xəbərin-ətərin olub-oldumu?**
**Yazıq qız necə də soldu, saraldı,**
**Özü uşaq ikən uşağa qaldı.**
**Yaxın qoymadınız ailənizə,**
**Bu bir ləkə olardı sizə.**
**Alim adamsınız, ona da yalnız,**
**Bir alim qızını almalıydınız.**
**Onun da arxası söykənsun dağa,**



**Getsin qabağa,**
**Sizə kiçik olsun,**
**Bizə də rəhbər.**
**Aldığı arvada,**
**Ərə gedənlər..."**

İndi Orxan İsmayılzadə də yəqin ki, belə kasıb qızlara yox, imkanlı ailənin qızlarına arxalanmaq istəyirmiş, amma...

***

Xəbər verilir ki, mart ayının son 10 günündə 17 nəfər dəm qazından boğularaq dünyasını dəyişib.

***P.S. Deməli, 17 ailənin Novruz Bayramı, necə deyərlər qara gəlib. Maraqlıdır ki, qış gələn kimi dəm qazı, yayda isə dəniz, neçə-neçə insan həyatına son qoyur. Orta və yaşlı insanlar yəqin yaxşı xatırlayırlar ki, bəyənmədiyimiz sovet dövründə dənizdə çox nadir halda kimsə batardı, dəm qazından ölüm faktı isə, şəxsən mənim yadıma gəlmir. Dəniz o dənizdir, amma niyə bu qədər adam yayda batır, hələ bunu bilən yoxdur. Qaz isə, bəli, o qaz deyil. Çünki sovet dövründə qazdan sızma olan kimi spesifik iy gəlirdi. O saat anlayırdın ki, evdə qaz iyi var. Dərhal qaçıb yaddan çıxmış və ya açıq qalaraq müəyyən səbəbdən sönmüş qazı bağlayırdın. İndi isə, qaz sızması zamanı heç bir iy hiss olunmur. Sadəcə qazın fışıltısı gəlir. Belə vəziyyətdə də çox qalsa, təbii ki, bədbəxt hadisə ola bilər. Dəfələrlə yazılıb, deyilib ki, qazdan iyin gəlməsi məqsədilə, ona lazım olan maddə vurulmur, emal edilmir. Niyə bu barədə mütəxəssislər susurlar? Onlar susduqca. hər il qışda neçə-neçə insan həyatını itirir. Bu özbaşınalığa nə vaxt son qoyulacaq?***

***

Bir saytın verdiyi məlumata görə, teleaparıcı Zümrüd Bədəlova qızı Ləman xanımla olan bir videosunu paylaşıb. Zümrüd xanım paylaşımına bu sözlərlə şərh yazıb: "Rəfiqəm, dostum, qızım, ailəm".

***P.S. Açıq-saçıq geyimləri ilə tanınan Zümrüd xanımı başa düşürük ki, bir müddətdən sonra ona əhəmiyyət verməyəcəklər. Onsuz da bir çox aparıcılar və müğənnilər öz yerlərinə artıq varislər hazırlayırlar. Gözəl bir qız olan Ləman xanım niyə də anasının yerini tutmasın? Aparıcılıq üçün də, maşallah, gözəl görünüşü var. Gələcəkdə geyim-geciminə də anası kimi fikir verər və olar əsl aparıcı. Uğurlar olsun, Zümrüd xanım.***



Müğənni Nura Suri restoranların dələduzluğu barədə sosial şəbəkədə bir paylaşıb edib: "Restoranların art direktorları müğənni ilə danışıb, onun reklamını sosial media səhifələrində paylaşırlar. Amma çıxışdan bir gün əvvəl müştərinin olmadığını bildirərək, müğənnidən imtina edirlər. Halbuki, zal dolu olur. Diqqətli olun, behi əvvəldən alın".

***P.S. Həəə... Bu da, sən demə, dələduzluğun yeni növü imiş. Deməli restoranların art direktorları hansısa müğənnini bir neçə gün əvvəl reklam edir, o müğənninin də pərəstişkarları həmin restorana gəlirlər, amma restoran müdiri müğənniyə bir gün əvvəl deyir ki, müştəri yoxdur deyə, zəhmət çəkib restorana gəlməsin. Müdirə lazım idi ki, restoran müştəri ilə dolsun, onu da bacarıb. Daha müğənni nəyinə lazımdır ki, əlavə pul xərcləsin? Ara yerdə Nura Suri kimi müğənnilər də umsuq qalırlar. Belə yerdə deyiblər e, "yalançı tamahkarı aldadar".***

***

Sabiq millət vəkili Nəsib Nəsibli mətbuata verdiyi müsahibədə İranın "narkotik müharibəsi"ndən danışarkən belə deyib: "Azərbaycan hökuməti ölkəyə bu qədər narkotikin necə keçirilməsini çox ciddi şəkildə düşünməlidir".

***P.S. Hörmətli Nəsib müəllim, Azərbaycan hökuməti bu barədə düşünməsə də, narkotacirlər çox ciddi şəkildə düşünürlər. Məhz bu ciddi düşüncənin nəticəsidir ki, ölkəmizdə narkomaniyaya ehtiyacı olan da, olmayan da "kayf" tutur. Məktəb şagirdlərindən tutmuş, müxtəlif peşə sahiblərinə qədər narkotikanın nə olduğunu yaxşı bilirlər. Hətta türmələrdə belə narkotikanın meydan suladığı barədə məlumatlar mətbuatda, saytlarda dolaşır. İndi kim çox ciddi düşünməlidir: hökumət, yoxsa narkotacirlər? Məşhur lətifədə deyildiyi kimi, "vallah mən buralı deyiləm". Ona görə də bu suala mən cavab verə bilmərəm.***

***

Xəbər verilir ki, müğənni sayılan Lətifə Soyuöz çəkələklərinə, çantasına və libasına 10 min manata qədər pul xərcləyib.

***P.S. Bu, təbiidir. Adamın qiymətli sənəti olmayanda, qiymətli əyin-başı olmalıdır ki, diqqət mərkəzinə düşə bilsin, toya çağırsınlar. Lətifə xanım da qiymətli bir sənət ortaya qoya bilməsə də, bahalı libaslar ortaya qoya bilib. Halaldır, mən ölüm.***



Müğənni Rəqsanə İsmayılovanın müğənnilik edən qızı Aysun İsmayılova "Həmin Zaur" verilişində evli kişi ilə heç vaxt münasibət yaşamayacağını bildirərək deyib: "Ümumiyyətlə, qısqanc insanam və heç vaxt kiminsə yarına göz qoya bilmərəm. Çünki onu bölüşmək istəmərəm. İndiyə qədər belə bir şey yaşamamışam. Mən heç vaxt evli kişini qəbul etmərəm. Çünki mən ailə qadınıyam".

***P.S. Maraqlı açıqlamadır. Bildiyimiz kimi, anası Rəqsanə xanımın birinci ərindən Aysun və Yağmur adlı qızları olub. İkinci həyat yoldaşı Fazil Əmiraslanovdan isə üç övladı var. Amma adamın başının üstündə Allah var, Aysun anasına oxşamayıb. Hələ gənc olan Aysun artıq iki dəfə ərdə olub, uşaqları isə hələ yoxdur. Dediyimiz kimi, Aysun xanım hələ gəncdir və nə yaşı var ki? Belə gözəl müğənni niyə də evli kişi ilə münasibət qurmalıdır? Allah saxlamış düz deyir dayna... Bunu da unutmayaq ki, bəzi şou-əhli xanımlar üçün ərin biri qaydadır, ikisi cana faydadır, üç nəhsdir, dörd bəsdir, çıxdın beşə, vur on beşə. "Vopşey" ər nədir, say nədir?***


**ELÇİN**
**elcinmemmedli**
**58@gmail.com**





**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 2018
Çapa imzalanmışdır:
17.03.2025